# ABŞ açıqladı

## Ukraynaya 400 milyon dollarlıq növbəti hərbi yardım paketi ayırılıb



**ABŞ Ukraynaya növbəti hərbi yardım paketini açıqlayıb.**

"Report" xarici mətbuata istinadən xəbər verir ki, bu barədə Pentaqonun mətbuat xidməti məlumat yayıb.

Paket çərçivəsində Ukraynaya 4 ədəd HIMARS çoxsaylı buraxılış raket sistemi, bu sistemlərin sursatları və artilleriya mərmiləri daxil olmaqla, əlavə 400 milyon dollarlıq hərbi yardım paketi ayırıb.

# Bakıda dənizdə batan şəxsin meyiti tapılıb



**Fövqəladə Hallar Nazirliyin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhərinin Sabunçu rayonunda dənizdə (ən yaxın sularda xilasetmə məntəqəsindən təqribən 600 m aralı, nəzarətsiz ərazidə) 1 nəfərin batması barədə məlumat daxil olub.**

Hadisə yerinə cəlb olunan FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən 1989-cu il təvəllüdlü Saqid Muhammedin meyiti tapılaraq aidiyyəti üzrə təhvil verilib.


❒ № 120 (5642), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 iyul 2022-ci il (şənbə)




# Məişət zorakılığı törədənlər cinayət məsuliyyəti daşıyacaq

## Qanunvericiliyə dəyişikliklərlə bağlı təkliflər layihəsi hazırlanıb

**"Azərbaycanda məişət zorakılığının qarşısının alınması ilə bağlı müvafiq qanunvericiliyə dəyişikliklərlə bağlı təkliflər layihəsi hazırlanıb. Bununla bağlı Cinayət, Mülki, İnzibati Xətalar məcəllələrinin bəzi bəndlərinə dəyişikliklər ediləcək".**

Bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, dəyişikliklərlə məişət zorakılığına cinayət nöqteyi-nəzərdən diqqət yetirilib: "Çünki bəzən məişət zorakılığına adi yanaşılır. Bəziləri hesab edirlər ki, əgər qadın zorakılığa məruz qalırsa, bu barədə cinayət işi açmamaq olar. Bu halların aradan qaldırılması istiqamətində qanunvericiliyə dəyişikliklər layihəsi hazırlanıb".




# Prezident İlham Əliyev Qurban bayramı ilə bağlı paylaşım edib

**Prezident İlham Əliyev Qurban bayramı ilə bağlı paylaşım edib.**

Dövlət başçısı "Twitter" səhifəsində üzərində "Qurban bayramınız mübarək" yazılan foto paylaşıb.

# Türkiyə ilə aparılan danışıqlar...

## Ermənistanın xüsusi nümayəndəsi səfirləri bu barədə məlumatlandırıb



**Dünən Ermənistan parlamentinin vitse-spikeri, rəsmi İrəvanın Türkiyə ilə münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi Ruben Rubinyan bir neçə ölkənin səfiri ilə görüşüb.**

"Report" "NEWS.am"a istinadən xəbər verir ki, görüş diplomatların müraciəti əsasında baş tutub.

R.Rubinyan Türkiyə ilə münasibətlərin normallaşdırılması üçün aparılan danışıqlardakı son durum, həmçinin xüsusi nümayəndələrin dördüncü görüşü nəticəsində əldə edilmiş konkret razılaşmalar barədə məlumat verib.

*Qeyd edək ki, görüşdə İsveçin Ermənistandakı səfiri Patrik Svensson, Finlandiyanın səfiri Kirsti Narinen, Estoniyanın səfiri Rina Kalyurand və başqa diplomatlar iştirak ediblər.*

# Yoluxma artsa, müvafiq addımlar atıla bilər

## Son bir həftə ərzində Azərbaycanda virusa tutulanların sayı 48 faiz artıb




"Vəziyyəti idarə etmək mümkün olacaq, Azərbaycanda koronavirusa kütləvi yoluxma ehtimalı çox aşağıdır"

**Dünyada olduğu kimi, Azərbaycanda da son günlərdə koronavirus infeksiyasına yoluxma hallarında artım müşahidə olunur.**

Bu səbəbdən ölkədəki epidemioloji vəziyyətlə bağlı Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb. Məlumata görə,dünya ölkələrinin bütün səylərini koronavirus infeksiyası (COVID-19) infeksiyası ilə mübarizəyə və profilaktik tədbirlərə yönəltməsinə baxmayaraq, pandemiyanın qarşısını tam almaq hələ də mümkün olmayıb...

(səh.4)

# MİDA-nın güzəştli mənzil seçiminin nəticələri ləğv olunub

## DTX qeyri-qanuni yolla güzəştli mənzil almaq istəyənlərə xəbərdarlıq edib



**"Güzəştli mənzil" sistemi vasitəsilə 30 mart 2022-ci il tarixdə keçirilmiş mənzil seçimi mərhələsinin nəticələri ləğv edilib. Bu barədə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə təşkil etdiyi brifinqdə məlumat verilib.**

Qeyd olunub ki, Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 442 mənzilin 30.03.2022-ci il tarixdə mənzillərin güzəştli şəkildə satışının həyata keçirildiyi "Güzəştli mənzil" sistemi üzrə mənzillərin seçimi prosesinə kənar şəxslərin qanunsuz müdaxiləsi halları aşkarlanıb.

(səh.3)



# "Efirə ağsaqqallar, ağbirçəklər dəvət olunmalıdır"

## Misir Mərdanov televiziyaları tənqid edib

**Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü Misir Mərdanov televiziyaları tənqid edib.**

"Report"un xəbərinə görə, o, ağsaqqallar və veteranların təmsil olunduğu qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forumunda çıxış edərkən deyib ki, televiziyalarda ailəsi olmayan ailədən, tərbiyəsi olmayan tərbiyədən danışır.

"Bu hallara son qoyulmalıdır. Televiziyalara ağsaqqallar, ağbirçəklər dəvət olunmalıdır. Onlar milli-mənəvi dəyərlərimizi gənclərimizə aşılamalıdır. Bu məsələlər diqqətdə saxlanılmalıdır", - M.Mərdanov bildirib.

# Ölən yoxdur

## Daha 59 nəfər COVID-19-a yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 59 yeni yoluxma faktı qeydə alınıb, 26 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 793 605 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 576 nəfər müalicə olunaraq sağalıb, 9 719 nəfər vəfat edib, aktiv xəstə sayı 310 nəfərdir.

Ölkədə son sutka ərzində 1 870, hazırkı dövrədək isə 6 981 903 test aparılıb.

# Pasport nəzarət sistemində problem yaranıb

## DSX hava limanındakı sıxlığa aydınlıq gətirdi



**Dövlət Sərhəd Xidməti (DSX) Heydər Əliyev Beynəlxalq Hava Limanında müşahidə olunan sıxlığa münasibət bildirib.**

DSX-dən "Şərq"ə bildirilib ki, bu gün 16:15 radələrində pasport nəzarət sistemində problem yaranıb və vətəndaşların dövlət sərhədindən buraxılmasında ləngimələr olub.

Aparılan işlər nəticəsində sistemdə olan problem 16:50 radələrində aradan qaldırılıb. Hazırda vətəndaşların ölkədən buraxılmasında heç bir problem yoxdur.



# Qlobal böhran təhlükəsi daha da güclənəcək

## Dünya heç də asan olmayan iqtisadi fazaya daxil olur

(səh.3)



# Millət vəkili narazılıq etdi

## Parlamentdə səslənən fikirlərin əksinə qərarlar qəbul olunur

(səh.4)

# Komandolara tapşırıqlar verilib

## Zakir Həsənov Xocavəndə gedib

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyulun 8-də Quru Qoşunlarının Xocavənd rayonundakı Əməliyyat (Komando) bölmələrinin təlim-məşqlərini izləyib.**



Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

2022-ci ilin döyüş hazırlığı planına əsasən çətin relyefli ərazilərdə keçirilən təlimdə komandolar yüksək peşəkarlıq nümayiş etdiriblər.

Müdafiə nazirinə təlimin planına uyğun olaraq qəbul edilən qərar barədə məruzə edilib.

Qeyd olunub ki, ssenariyə əsasən təxribat törədərək dövlət sərhədi istiqamətindəki yaşayış məntəqəsinə basqın edən şərti düşmənin zərərsizləşdirilməsi üzrə komando bölməsi müvafiq tapşırıq alıb.

Komandolar dərhal daimi dislokasiya məntəqələrini tərk edərək şərti düşmənlə təmasa girmədən ərazi relyefi nəzərə alınmaqla hakim yüksəklikləri ələ keçirib və burada möhkəmlənmə fəaliyyətlərini icra ediblər.

Əldə olunan kəşfiyyat məlumatına əsasən aşkar edilmiş şərti düşmən mövqeləri pusqu və basqın yolu ilə darmadağın edilib.

Müdafiə naziri komandir heyətinin çevik və optimal qərar qəbuletmə bacarıqlarının inkişaf etdirilməsi, eləcə də komandoların dağlıq və meşəlik ərazilərdə taktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimi yüksək qiymətləndirib və aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Sərnişinlərin fərdi qəza sığortası da olmalıdır

## Bu sürücülər texniki baxışa buraxılmayacaq

**Azərbaycanda sərnişin daşıyan avtomobillər üçün daha bir icbari sığortanın geniş miqyasda tətbiqi başlayır.**



"Xəzər xəbər" məlumat verir ki, bu "Yol hərəkəti haqqında" qanuna təklif edilən dəyişiklikdə nəzərdə tutulub. Qanunun 30-cu maddəsinə (avtomobillərin texniki baxışdan keçirilməsi) təklif olunan dəyişikliyə əsasən, avtomobillər yalnız o vaxt texniki baxışa buraxılacaq ki, onların sahiblərinin mülki məsuliyyəti sığortalansın, sərnişin daşımaları xidməti həyata keçirən avtomobillər isə həm də sərnişinlərinin fərdi qəza sığortası ni etmiş olsunlar.

Başqa sözlə, rayonlararasında sərnişin daşımalarını həyata keçirən avtomobillər - ənənəvi icbari sığortadan başqa, sərnişinlərin fərdi qəza sığortasını da etdirməlidilər ki, texniki baxışa buraxılsınlar.

Xatırladaq ki, Maliyyə Nazirliyinin təsdiqlədiyi "Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta haqlarının məbləğinin hesablanması Q A Y D A S I"na əsasən sərnişin avtomobillərində sərnişinlərin icbari surətdə fərdi qəza sığortası etdirmək üçün tariflər hər sərnişin yeri üçün 6 manat nəzərdə tutulub.

Bu sığorta baş verən hadisəyə görə hər bir sərnişin üçün 5000 manata qədər olmaqla sığorta ödənişi təmin edir.

Avtomobil texniki baxışa daxil olanda onun sığorta edilib-edilməməsi "İcbari sığortalar haqqında" qanunda nəzərdə tutulan elektron informasiya sistemi vasitəsilə yoxlanılacaq.

# Baş nazir postu uğrunda yarış başlayıb

## Consonun istefası Britaniyanın xarici siyasət kursuna təsir göstərməyəcək

**Müxalifətdəki Leyboristlər Partiyası gələn həftə Böyük Britaniyanın Baş naziri Boris Consonun baş nazir postundan getməsini sürətləndirmək üçün ona etimad səsverməsi keçirməyə hazırlaşır. Leyboristlərin lideri Kur Starmer Consonun baş nazirlikdən dərhal getməsinin tərəfdarı olduğunu açıqlayıb.**



Britaniyada siyasi təlatümlər tez-tez yaşanır. Bu, Londonun strateji müdafiə reflekslərinə zərbə endirmək potensialına malik deyil

Britaniya İcmalar Palatasında Şotlandiya Milli Partiyası fraksiyasının lideri İan Blekford "Sky News"a müsahibəsində deyib ki, o, gələn həftə Consona etimad səsverməsinin keçirilməsi təşəbbüsü ilə çıxış edəcək. Mütəxəssislərin vurğuladığı kimi, baş nazirin həttа tərəfdaşları arasında da populyarlığının kəskin şəkildə aşağı düşməsini nəzərə alsaq, müxalifətin təklifi Consonun keçid dövründə "Dauninq-stritdə" qala bilməməsi ilə nəticələnə bilər. Xatırladaq ki, Conson ötən gün Mühafizəkarlar Partiyasının sədri və Böyük Britaniyanın baş naziri postlarından istefa verdiyini açıqlayıb. Conson hazırda dünyanın ən çox müzakirə olunan siyasətçisidir. O, dövrümüzün ən xarizmatik siyasətçilərindən biri hesab olunur. Bu günlərdə dünya mətbuatı öz manşetlərini Consona aid məlumatlarla təqdim edir. Boris Conson istefa versə də, bu ilin oktyabr ayına kimi - hakim Mühafizəkarlar Partiyasına yeni lider seçilənə qədər səlahiyyətlərinin icrasını davam etdirəcək. Xeyli vaxt idi ki, 2020-2021-ci illərin koronavirus qapanmaları, sərt karantin rejimləri dövründə hökumət iqamətgahında keçirilən kütləvi şənlik mərasimlərinə qatılmaqda ittiham olunurdu. 2022-ci il iyulun 5-dən başlayaraq dünənə kimi hökumətin 60-a yaxın üzvü, o cümlədən xeyli nazir istefa verərək, baş nazirə etimadsızlıq nümayiş etdirib. Consonu postunu tərk etməyə çağırıblar. O əvvəllər adı müxtəlif qalmaqallarda hallanmış Kristofer Pinçerə hakim partiyada yüksək vəzifə verməkdə də təqsirli bilinirdi. Parlamentin üzvü olan Kris Pinçer iyunun 29-da paytaxt Londonun klublarının birində sərxoş vəziyyətdə dava salıb. Ertəsi gün günahını boynuna alaraq istefa verib, bununla da hökumətə sarsıdıcı zərbə vurub. Consonun atasının babası Əli Kamal - türkiyəli jurnalist, Osmanlı İmperiyasının son böyük vəziri Əhməd Oqtay hökumətində qısa müddət daxili işlər naziri olub. Daha sonra babası Osman Əli İngiltərəyə qaçıb və orada Uilfred Conson adını qəbul edib.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Boris Consonun istefasını Qərb-Rusiya qarşıdurması fonunda izah etmək yanlış olardı. Çünki Britaniyada daxili siyasi təlatümlər tez-tez baş verir. Bu, Londonun strateji müdafiə reflekslərinə zərbə endirmək potensialına malik deyil:** "Britaniyada kimin baş nazir postunda əyləşməsindən asılı olmayaraq, o, qlobal siyasətini dərin strateji zəka ilə müəyyənləşdirir və bu proses davam edəcək. Bununla belə, Britaniyada hökumətə sədrlik etmək uğrunda bir yarışa start verilir. Bu sahədə bəzi prosedur qaydalar mövcuddur. Birləşmiş Krallıqda baş nazir istefa verdikdə, bir qayda olaraq seçki keçirilmir. Boris Conson istefa versə də, payıza qədər vəzifəsinin başında qalacaq. Əgər Conson payıza qədər baş nazir postunda qalsa, bu, o deməkdir ki, mühafizəkarlar yeni lider seçənə qədər öz vəzifəsini davam etdirəcək. Bu müddət ərzində Conson Nazirlər Kabinetinə yeni üzvlər təyin edə bilər".

**A.Kərimova görə, Conson yeni lider tapıldıqdan sonra baş nazirlik postu ilə vidalaşacaq:** "Mühafizkarlar Partiyasının lideri istefa verdikdən sonra, yeni lider seçimi üçün seçki başlayır. Qaydalara əsasən, liderliyə namizədlərin namizədliyini irəli sürmək üçün mühafizkarlardan 8 deputatın dəstəyi lazımdır. Əgər seçim zamanı ikidən çox namizəd qalarsa, bu zaman yalnız iki nəfər qalana qədər bir sıra səsvermə keçirilir. Birinci turda namizədlər seçkidə qalmaq üçün ən azı 5 faiz səs toplamalıdır. İkinci turda onlar 10 faiz səs qazanmalıdır. Növbəti turlarda ən az səs toplamış namizədlər mübarizədən kənarlaşdırılır. Sonda qalib iki nəfər arasından seçilir. Britaniya mətbuatında Boris Consondan sonra kimin baş nazir olacağı da müzakirə edilir. Həmin şəxslərin bəziləri bizə tanışdır. Məsələn, Böyük Britaniyanın təzəlikcə istefa verən Səhiyyə naziri Sacid Cavid, indiki Xarici işlər naziri Liz Trass və Müdafiə naziri Ben Uollesin adları namizədlər sırasında çəkilir. Britaniya özünün qlobal siyasət konsepsiyasını "Qlobal Britaniya" strategiyası ilə təzələyib və buna uyğun davranmaqda davam edəcək. Yeni daxili-siyasi təlatümlər Britaniyanın xarici siyasət kursuna təsir göstərməyəcək".

**İsmayıl Qocayev**

# Rusiyanın sərhəddimizdə hərbi baza qurması ciddi məsələdir

## "Nazir Ceyhun Bayramov bir neçə gündür ki, çıxışlar edir, amma bu məsələlərdən danışmır"

**Ermənistanın Aygepar kəndində Rusiyanın hərbi bazasının yaradılacağı deyilir. Erməni mediası yazır ki, Ermənistanın Tavuş vilayəti Berd rayonunun Aygepar kəndində bir aydan çoxdur ki, qızğın tikinti işləri gedir.**



Hətta hökumət saytları da yazır ki, Ermənistan ərazisindəki Rusiya hərbi bazasının dislokasiya ünvanlarının dəyişməsinə dair protokola uyğun olaraq Rusiya tərəfinə yeni torpaq sahələri və daşınmaz əmlak verilir.

Son günlər sosial şəbəkələrdə Azərbaycan və Ermənistan seqmentində Rusiyanın Tovuzun bir kilometrliyində yeni hərbi baza tikməsi haqda yayılan məlumatlar əhali arasında narahatlığa səbəb olub. Hesab edilir ki, Rusiyanın bu addımının altında gizli niyyətlər yatır.

**Rusiyanın regiondakı vəziyyətin stabilləşməsini istəmədiyini deyən hərbi ekspert Üzeyir Cəfərov "Şərq"ə bildirib ki, Rusiyanın bir addımlığımızda hərbi baza yaratması heç də xoş niyyət yoxdur:** "Tikilən bazanın məqsədi əslində Tovuz rayonu ərazisindəki Azərbaycandan Avropaya keçən enerji resursları marşrutlarını təhdid altında saxlamaqdır.

Rusiya bununla həm Azərbaycana, həm də bizim enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq etdiyimiz Avropa ölkələrinə təzyiq göstərəcək. Əlibəyli kəndi Ermənistana heç bir narahatlıq törətmir, əksinə, Ermənistan tərəfi hər zaman burada təxribatlar törətməyə cəhd göstəriblər.

Biz Ermənistanla sülh bağlamağı planlaşdırırıqsa, Rusiyanın burnumuzun dibində bir bazası ola-ola ikinci bazanı yaratması qəbulolunmazdır. Xarici işlər naziri Ceyhun Bayramov bir neçə gündür ki, çıxışlar edir, amma bu məsələlərdən danışmır.

Bu proses gündəmə gəlməlidir. Rusiyanın təhlükə yaratdığı bir zamanda bizim səyirci mövqeyi tutmağımız xoşagəlməz haldır. Rusiya Cənubi Qafqazdan çıxmalıdır".

**Nihat Müzəffər**

# Rusiya-Ukrayna savaşı muzdlu ixracına təkan verib

## Zahid Oruc: "Əgər biz seyrçi qalsaq, sabah övladlarımızdan legioner tabor düzəldəcəklər"



**"2014-2015-ci illərdə Yaxın Şərqdəki savaşa aldadılaraq qatılan vətəndaşların qarşısını almaq üçün o zaman bir sıra sərt hüquqi-siyasi tədbirlər görülmüşdü. Cinayət Məcəlləsində terror birləşmələrinin tərkibində iştirak edənlərə cəzaların sərtləşdirilməsi, vətəndaşlıqdan və ölkədən çıxarılma, eləcə də azərbaycanlıları ələ almağa çalışan casus qruplarına qarşı əkstəbliğat tədbirləri gücləndirilmişdi".**

Bu barədə Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Strateji Tədqiqatlar Mərkəzinin (STM) sədri Zahid Oruc parlamentin iclasında çıxışı zamanı deyib. Millət vəkili qeyd edib ki, təəssüf ki, o zaman 900-ə yaxın vətəndaşın Suriya və İraqda terror qruplarına qatıldığı, 300-nün həyatını itirdiyi, 200-ə yaxın şəxsin həbs edildiyi, 200-ə qədərinin isə vətəndaşlıqdan çıxarıldığı rəsmən bəyan edilmişdi: "2 həftə öncə Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri hörmətli Əli Nağıyevin İraq və Suriyada qanunsuz hərbi əməliyyatlara qatılan 366 şəxsin, onların ailə üzvlərinin ölkəmizə qaytarıldığını bildirməsi xarici silahlı qruplara qoşulanların mühüm milli təhlükəsizlik problemi olduğunu göstərir. Vətən müharibəsindən 5 il əvvəl bu qədər gəncin sıralarımızdan getməsi, razılaşın ki, böyük itkidir".

Komitə sədri bildirib ki, Rusiya-Ukrayna savaşı növbəti muzdlu ixracına təkan verib: "Hər iki dövlətin rəhbərliyi açıq şəkildə "beynəlxalq könüllülər legionu"nu onlara qoşulmağa çağırır. Mötəbər media və teleqram kanalları minlərlə muzdlunun müxtəlif məqsədlər və bayraqlar altında gəlib orada döyüşdüyünü göstərir. Bəllidir ki, Ukraynada yaşayan, lakin vətəndaşlarımız olan insanlar da savaşa qatılır və qarşı səngərdən birbirinə atəş açırlar. Dəqiq sayları bəlli deyil, lakin Suriyada cihad ideyası ilə müqəddəsliyə can atanlar indi Ukraynada din yox, müxtəlif vədlər, xüsusən də aylıq 1000-3000 dollar muzda görə silahlı qruplara qoşulurlar. Təəssüf ki, bir sıra yerli partiyalar vətəndaşların müharibəyə qatılmasını təşviq edir. Çünki Ukraynaya hərbi dəstək siyasi xal qazandırır. Halbuki, bir müddət əvvəl Goranboya gətirilib dəfn edilən Elnur Həsənovun itkisini təkcə ailəsi yaşadı. Əgər biz seyrçi qalsaq, sabah övladlarımızdan legioner tabor düzəldəcəklər. Çoxlarınız əlində silah "mən azərbaycanlıyam" deyib Ukrayna və ya Rusiya rəhbərlərini ittiham edən kadrları görmüsünüz. Heç şübhəsiz, dövlətimizi müharibəyə çəkmək istəyənlər bu muzdlu əməliyyatı bizim hərbi cəhətdən neytral, siyasi baxımdan barış kursumuza qarşı istifadə edirlər".

**Z.Oruc vurğulayıb ki, ölkəmizi İkinci Qarabağ savaşına xaricdən döyüşçü gətirməkdə ittiham edənlər indi kütləvi muzdlu ixracına yaşıl işıq yandırırlar:** "Beynəlxalq hüquq iflasa uğrayıb və "Vaqner" tipli hərbi təşkilatlar milli ordulardan önə keçib. Əmək miqrantlarını hərbi miqrasiya əvəzləyib. Bəs biz nə etməliyik? Desək ki, onlar gedib rəsmi dövlət ordusuna qoşulursa, cinayətkar deyillər. Qoy gedib pul qazansınlar, onda təhlükəli bir prosesə yardımçı olarıq. Onların ölkəmizə qətirəcəyi təhlükəli düşüncə, öldürmək psixologiyası Amerika məktəblərindəki qırğınlar üçün münbit zəmin yaradır. Ölkəmizdə "Vaqner ÇVK"ya bənzər beynəlmiləl birləşmə yaratmaq çıxış yolu ola bilməz. Yad maraqlar, yalnız pul naminə, millətin övladları onların olmayan muzdlu müharibəsinə qoşulmamalıdır! Bizim haqq müharibəmiz nahaq savaşlardan uzaq durmağı tələb edir!".

**İsmayıl**

# İran sülh müqaviləsinin bağlanmasında maraqlı deyil

## Ermənistanın atəşkəsi mütəmadi pozması və sülh danışıqlarından yayınmasında Tehranın rolunu istisna etmək olmaz

**"İran Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasında maraqlı deyil".**

**Bu barədə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, bu xüsusda İran rəsmilərinin İrəvana səfəri və erməni rəsmiləri ilə danışıqlarda anti-Azərbaycan mövqeləri aydın görünür:** "İranın regionda sülhün əldə edilməsini Türkiyənin bu regionda geostrateji mövqeyə sahib olunacağından, Ermənistanın İranla deyil. Türkiyənin təsir dairəsinə düşəcəyindən ciddi narahatdır. Ona görə də hər vəchlə həm Zəngəzur dəhlizinə qarşı çıxır, həm də Azərbaycana qarşı məzhəbsəl siyasi təzyiqlərə əl atır. Bu kontekstdə İran Azərbaycan və Türkiyəyə qarşı öz ərazisindən informasiya vasitələrindən istifadə edərək əks-təbliğat işi aparır".

**Analitik qeyd edib ki, baş verənlərə rəğmən, rəsmi Bakı əlaqələrin zədələnməməsi və inkişaf etdirilməsi üçün səy göstərir:** "Xarici işlər naziri Ceyhun Bayramovun İrana səfəri və Tehran rəsmilərinin Bakıya səfərləri qarşı tərəfdən qaynaqlanan problemə son verilməsinə gətirib çıxarmalıdır. Bundan əlavə, Ermənistanın atəşkəsi mütəmadi pozması və sülh danışıqlarından yayınmasında Tehranın rolunu istisna etmək olmaz. Bütün bunlara baxmayaraq, Azərbaycanın İrana qarşı bütün müsbət reveranslarına baxmayaraq, Tehran Azərbaycanla məsafəli siyasət aparacaq".

**İsmayıl**

# Nifrət silahı...

## Vandalizm ermənilərin həyat tərzinə çevrilib



**"Erməni ultramillətçiliyi həm formasına, həm də məzmununa görə, son 200 ildə mövcud olan bütün millətçi dünyagörüşlərindən fərqlənir. Daha aqressiv, mərhəmətsiz və amansızdır".**

Bu sözləri siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Analitik bildirib ki, bu dünyagörüşü özündə bəşər tarixinin bütün pisliklərini, anti-insani təfəkkür və davranışların birləşdirən təfəkkür və həyat tərzidir: "Erməni vandalizminin kökləri haqqında apardığım araşdırmalar zamanı da buna bir daha əmin oldum. Vandalizmlə bağlı filosof və psixoloqların fikirlərini ümumiləşdirən dünyaca məşhur "Laruss" ensiklopediyasında qeyd olunur ki, "vandalizm insanın qarşısına çıxan bütün gözəllikləri, o cümlədən incəsənət əsərlərini məhv etməyə sövq edən ruh halıdır". Ermənilərdə bu, toplumsal ruh halıdır və özünü, əsasən, ekstremal vəziyyətlərdə, vandalizm üçün əlverişli tarixi şərait və cəzasızlıq mühiti yaranan zaman daha qabarıq şəkildə büruzə verir. Qeyd edim ki, erməni Qriqoryan kilsəsinin, Daşnaksütyun və Qnçak kimi ultramillətçi təşkilatların ideoloqlarının tarixi Azərbaycan torpaqlarından, o cümlədən İrəvandan azərbaycanlıların izini tamamilə silməkdə məqsədləri yalnız "Böyük Ermənistan" xülyasını gerçəkləşdirməkdən ibarət olmayıb. Onlar ermənilləri, xüsusilə də yeni nəslin nümayəndələrini uydurduqları və saxta ideoloji pazllardan ibarət "tarix"lərinə inandırmaq, zombiləşdirmək, nifrət silahına çevirmək istəyirdilər. Eynilə Hitler və onun millətçi-sosialist partiyasının ideoloqları kimi..".

**E.Mirzəbəyli vurğulayıb ki, Almaniyada faşistlər hakimiyyətə gəldikdən sonra gənc nəslin və bütövlükdə almanların beynini yumaq üçün 12 tezisdən ibarət təlimat hazırlamışdılar:** "Hitler inkivizisiyası" adını alan bu tezislər alman xalqının gerçək keçmişi və bəşəri dəyərlərlə bütün əlaqələrinin qırılmasına xidmət edirdi. Nifrət, yalan, xəstə, şozofrenik təfəkkürdən doğan mistik fərziyyələr üzərində qurulan ideyalar nüvə silahından da dəhşətli silahdır. Faşizmin, o cümlədən erməni faşizminin tarixi də bunu sübuta yetirir. Ermənilərin türklərə, azərbaycanlılara və bütövlükdə erməni olmayanlara qarşı nifrət üzərində kökləyən əfsanə və nağılların da Adolf Hitleri ekstaza gətirən mistik hekayədən fərqi olmadığını düşünürəm. Əks təqdirdə, İrəvanda Təpəbaşı mədəni soyqırımı və azərbaycanlılara məxsus digər yaşayış məntəqələrində misli görünməmiş vandalizm aktları nə üçün törədilməliydi ki?".

**İsmayıl**



# MİDA-nın güzəştli mənzil seçiminin nəticələri ləğv olunub

## DTX qeyri-qanuni yolla güzəştli mənzil almaq istəyənlərə xəbərdarlıq edib



**”Güzəştli mənzil” sistemi vasitəsilə 30 mart 2022-ci il tarixdə keçirilmiş mənzil seçimi mərhələsinin nəticələri ləğv edilib. Bu barədə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə təşkil etdiyi brifinqdə məlumat verilib.**

Qeyd olunub ki, Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 442 mənzilin 30.03.2022-ci il tarixdə mənzillərin güzəştli şəkildə satışının həyata keçirildiyi ”Güzəştli mənzil” sistemi üzrə mənzillərin seçimi prosesinə kənar şəxslərin qanunsuz müdaxiləsi halları aşkarlanıb. Agentliyin Dövlət Təhlükəsizliyi Xidmətinə müraciəti əsasında aparılan araşdırmalar nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - E.E.Məmmədov, R.A.Hacıyev, F.İ.Hüseynov, Y.İ.Lətifzadə, T.T.Abdullayev, C.F.Məmmədov və digərləri müəyyən edilərək saxlanılıblar. Adıçəkilən şəxslər qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən kompüter sisteminə və kompüter məlumatlarına təkrar qanunsuz müdaxiləyə görə məsuliyyətə cəlb ediliblər. Bəyan edilib ki, ”Güzəştli mənzil” sistemi Agentliyin sərəncamında olan mənzillərin güzəştlə əldə olunması sahəsində ölkə vətəndaşlarına elektron xidmətlərin mərkəzləşdirilmiş qaydada göstərilməsini həyata keçirir. Onun da əsas məqsədi mənzilləri güzəştlə almaq istəyən şəxslər üçün bərabər şərait yaratmaq, mənzillərin seçilməsi və alınması prosedurunu sadələşdirmək, vətəndaşların müraciətlərinə baxılması zamanı şəffaflığı və operativliyi təmin etməkdir. O da vurğulanıb ki, Agentliyin sərəncamında olan mənzillərin güzəştlə satışının ədalətli, şəffaf və bərabər şəraitdə keçirilməsini təmin etmək məqsədilə Yasamal Yaşayış Kompleksinin 2-ci mərhələsində 442 mənzilin seçimi yenidən həyata keçiriləcək. Mənzil seçimi prosesinin yenidən təşkil olunacağı tarix barədə ictimaiyyətə məlumat veriləcək.

### “Güzəştli mənzillərin seçim prosesinə müdaxilə üçün xüsusi proqram təminatları hazırlanıb”

**Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) təşkil etdiyi mətbuat konfransında MİDA-nın Aparat rəhbəri Fərman Qurbanlı deyib ki, 30 mart 2022-ci il tarixində Yasamal Yaşayış Kompleksində yerləşən 442 mənzilin seçim prosesi baş tutandan sonra müəyyən şübhəli hallar müəyyən edilib.** O bildirib ki, MİDA buna görə Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət edib. Qeyd olunub ki, müdaxilələr nəticəsində bərabər seçim şərtləri pozulub və buna görə də prosesinin bütün nəticələri ləğv edilib. Aparat rəhbərinin sözlərinə görə, mənzillərin seçimi barədə elan satış tarixindən ən azı 30 gün əvvəl verilir. Hər elandan sonra, təxminən 1 ay müddətində güzəştli mənzilin DEMO versiyası elektron kabinetə sahib olan şəxslərə verilir: ”Burada məqsəd iştirak etmiş şəxslərin sistemdən istifadəni təkmilləşdirməsi ilə bağlıdır. Satış elektron qaydada həyata keçirilir. Mənzil seçimi prosesi cəmi iki mərhələdən ibarətdir. Lakin güzəştli mənzil sisteminin bəzi istifadəçiləri tərəfindən bu sistemi daha sürətli etmək üçün müəyyən şəxslərə xüsusi proqram təminatları hazırladılıb. 30 martda keçirilən seçimlərdə də bu proqram təminatlarından istifadə edilib”.

### “Mənzillərin 60 faizdən çoxu qeyri-qanuni yolla seçilib”

Fərman Qurbanlı bildirib ki, güzəştli mənzil sisteminin tətbiqinin əsas məqsədi güzəştlə mənzil əldə etmək istəyən şəxslər üçün bərabər şəraitin yaradılmasıdır. O bildirib ki, bir sıra şəxslər isə onlara müraciət etmiş şəxslərin seçimlərini daha tez etmək üçün xüsusi proqram təminatları hazırlayıblar: ”Onlar artıq digər vətəndaşların mənzil seçmək hüququnu məhdudlaşdırıblar. Ona görə də ümumilikdə onlar dövlət qurumlarının da fəaliyyətinə maneçilik törədiblər. Xüsusi proqram vasitəsilə müdaxilə nəticəsində bu sistemdən istifadə etmək istəyən digər vətəndaşların da hüquqlarını məhdudlaşdırıb. Mənzillərin 60 faizdən çoxu müdaxilə nəticəsində qeyri-qanuni yolla seçilib. Ona görə də bərabərlik pozulduğu üçün bütün seçimlər ləğv edilib”. Aparat rəhbəri martın 30-da MİDA tərəfindən verilən açıqlamada sistemdə donma hallarının vurğulandığını qeyd edib: ”Daha sonra isə biz sosial şəbəkələrdə yazılanlar və seçimlərin təhlili nəticəsində müdaxilə hallarının olduğunu müəyyən etdik. Bundan sonra araşdırma aparılması ilə bağlı açıqlama yaydıq”.

### “Güzəştli mənzillərin əvvəlki seçimində iştirak edənlərə məhdudiyyət qoyulmayacaq”

MİDA-nın Aparat rəhbəri Fərman Qurbanlı məzillərin satışına kənar müdaxilələrin səbəbini açıqlayıb. O deyib ki, demo versiya vətəndaşlara 1 ay əvvəldən verilir: ”Demo versiya sistemin əsl versiyası ilə birə-bir eyni hazırlanıb. Müdaxilələr də xüsusi işbazlar tərəfindən proqramların hazırlanması nəticəsində olur. İşbazlar müraciət edən vətəndaşlara verilən demo versiyaya uyğun olaraq proqram yazdırıblar. Buna görə də hazırda bu problem yaranıb. Bunun da qarşısını almaq üçün artıq biz xüsusi təhlükəsizlik tədbirləri alırıq. Bundan sonra kənar müdaxilələrin qarşısı alınacaq”. Aparat rəhbəri qeyd edib ki, bütün mənzillər satış başlayan saatda seçim üçün aktiv olur: ”Seçimin sürətli həyata keçirilməsi bəzi vətəndaşların mənzil seçimi mərhələsinə çatdıqda mənzili görməməsinə səbəb olur. Bu zaman belə iddialar olur ki, seçimə mənzil çıxarılmayıb”. Fərman Qurbanlı növbəti seçimin nə zaman keçiriləcəyinə də aydınlıq gətirib: ”Hələ sistemdə bəzi işlər gedir. Bu işlər yekunlaşandan sonra növbəti mərhələ elan olunacaq və bir ay əvvəldən mənzil seçimi ilə bağlı elan veriləcək. Əvvəlki seçimdə iştirak edən şəxslərə də heç bir məhdudiyyət tətbiq edilməyəcək”.

Mənzil İnşaatı Dövlət Agentliyinin təşkil etdiyi mətbuat konfransında MİDA-nın Aparat rəhbəri Fərman Qurbanlı deyib ki, güzəştli mənzil əldə etmək üçün kateqoriyalar müəyyən olunub. O qeyd edib ki, seçim prosesində mənzili əldə etmək hüququ olan şəxslər iştirak edir: ”Qaydaya əsasən, mənzillərin 3 il müddətində özgəninkiləşdirilməsinə məhdudiyyət nəzərdə tutulub. 3 il müddətinə bu mənzilin kirayə verilməsi, satışı rəsmiləşdirilə bilməz”.

### “Ödəniş qarşılığında ”kömək” təklif edənlər var”

F.Qurbanlı bəyan edib ki, güzəştli mənzil seçimi üçün ödəniş qarşılığında ”kömək” təklif edənlər var: ”MİDA bu hallarla rastlaşanda müvafiq tədbirlər görür. Vətəndaşlardan da xahişimiz budur ki, bu kimi hallarla rastlaşanda müraciət etsinlər və biz bunun qarşısını alaq”. Fərman Qurbanlının sözlərinə görə, artıq sistemi elə hala gətirmək istəyirlər ki, hansısa proqramçılar demo versiya vasitəsilə sistemin eynisini düzəldə bilməsinlər: ”Bunun üçün artıq sistemdə təhlükəsizlik tədbirləri görülür. Demo versiya ilə əsas versiya arasında müəyyən fərqlər olacaq ki, işbazlar bura müdaxilə edə bilməsinlər. Sistem hazır hala gələndən sonra növbəti mərhələ ilə bağlı elan yerləşdiriləcək”.

### “Güzəştli mənzillərin əvvəlcədən bronlaşdırılması iddialarının əsası yoxdur”

**MİDA-nın Aparat rəhbəri Fərman Qurbanlı vurğulayıb ki, MİDA-nın elan etdiyi güzəştli mənzil seçimi vasitəsilə ev alan şəxslərin orada yaşayıb-yaşamaması qaydalarla tənzimlənmir. O qeyd edib ki, mənzili əldə etmək hüququ təsdiqlənmiş şəxsin mənzil əldə etmək hüququ var:** ”Digər tərəfdən, Mənzil İnşaatı Dövlət Agentliyinə məxsus güzəştli mənzillərin əvvəlcədən bronlaşdırılması barədə iddiaların əsası yoxdur. Bütün mənzillər satış başlayan zaman aktiv olur. Sadəcə iş sürətli həyata keçirilir”.

### “Mənzil seçimi zamanı eyni İP ünvanlardan istifadə edilib”

**Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşı Günel Hüseynova deyib ki, 14 aprel 2022-ci ildə qeyd olunan məsələ ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsi tərəfindən cinayət işi başlanılıb. O bildirib ki, araşdırma nəticəsində çoxsaylı istintaq hərəkətləri və prosessual tədbirlər həyata keçirilib:** ”Bir çox hallarda mənzil seçimi prosesini faktiki olaraq adları keçən şəxslərin özləri deyil, informasiya texnologiyaları sahəsində xüsusi biliklərə malik olan şəxslər və kiberproqramlardan istifadə edilərək mənzil seçiminin reallaşdırılması təsdiqini tapıb. Buna misal olaraq bizim hazırkı cinayət işi üzrə cinayət məsuliyyətinə cəlb olunmuş təqsirləndirilən şəxslərə məxsus eyni İP ünvanlardan bir anda bir neçə mənzil seçimi üçün müraciət etmə faktı müəyyən edilib”. Günel Hüseynova qeyd edib ki, bu faktla bağlı İstintaq baş idarəsi tərəfindən aparılmış araşdırma zamanı istər təqsirləndirilən şəxslər, istərsə də adlarına seçim edilmiş şəxslər kifayət qədər mötəbər faktlar verib: ”Bundan başqa, istintaq texniki imkanlardan istifadə edərək təqsirləndirilən şəxslər tərəfindən müəyyən kompüter proqramlarının dəyişdirilməsinə və digər formada müdaxilə edilməsini təmin edən kiberproqramlar və kiberhücumların izləri müəyyən edilib. Əlavə olaraq, daha az müddətə mənzil seçiminin mümkünlüyü DTX-nin İstintaq baş idarəsi tərəfindən araşdırılıb. İstintaq eksperimentinin nəticəsi olaraq kifayət qədər dəlillər əldə olunub”.

Günel Hüseynova bildirib ki, mənzil seçimi prosesində 6 saniyə ərzində 1 nəfər, 7 saniyə ərzində 18 nəfər, 8 saniyə ərzində 52 nəfər, 9 saniyə ərzində 62 və 10 saniyə ərzində 78 nəfər mənzil seçimini tamamlayıb: ”Ümumiyyətlə, mənzil seçimi ilə bağlı aparılan araşdırma onu göstərir ki, mənzil seçimində iştirak etmiş şəxslərin demək olar ki, özləri prosesi qanunileşdirməyib. Onların əvəzinə ya kiberproqramlar tətbiq edilməklə, ya da informasiya texnologiyaları sahəsində xüsusi bilikləri olan şəxslər tərəfindən mənzillər rəsmiləşdirilib”.

### 25 min vətəndaş güzəştli mənzil sistemində qeydiyyatdan keçib

”R.İ.S.K” elmi istehsalat şirkətinin icraçı direktoru Rüfət Quliyev deyib ki, Agentlik fəaliyyətə başlayandan bu günə qədər 8 layihənin icrasına başlayıb, bunlardan 4-ü başa çatıb. O qeyd edib ki, bununla yanaşı, qeyd edilən layihələrdə 13 sosial obyekt istifadəyə verilib: ”25 min vətəndaş artıq güzəştli mənzil sistemində qeydiyyatdan keçib”.

MİDA alınan, lakin istifadə edilməyən mənzillərlə bağlı məsələyə aydınlıq gətirib. Agentliyin əməkdaşı Fərman Qurbanlı məlumat verib ki, vətəndaşın mənzil əldə etmək hüququ varsa, mənzil ala bilər: ”Bundan istifadə edib-etməmək isə vətəndaşın öz işidir”.

**İsmayıl**

# "Mətbuat tarixi: Sənədlər, faktlar"

## Akif Aşırlının növbəti kitabı çap olunub




**Tarix üzrə fəlsəfə doktoru, ”Şərq” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Akif Aşırlının növbəti kitabı çap olunub.**

”Mətbuat tarixi: Sənədlər, faktlar” adlı yeni kitab müəllifin müxtəlif illərdə qələmə aldığı məqalələr toplusudur. Kitabın elmi redaktoru BDU-nun Jurnalistika fakültəsinin Milli Mətbuat tarixi kafedrasının müəllimi Samir Xalidoğludur. Elmi-publisistik üslubda yazılan məqalələr Azərbaycan jurnalistika tarixində tədqiqatdan kənarda qalan nəşrlərin öyrənilməsini əhatə edir. Kitabda ”Açıq söz” qəzetinin ilk və son sayları, ”Övraqi-nəfisə”, ”El həyatı” dərgiləri, ”Gələcək”, ”Jurnalist”, ”Yeni həyat”, ”Müdafiəi-millət”, ”Qardaş qayğısı” qəzetləri barədə geniş araşdırmalar oxuculara çatdırılır. Həmçinin, kitabda, Milli mətbuatımızın banisi Həsən bəy Zərdabi və övladı Səffət Zərdabi, indiyədək tədqiq olunmayan dövrün görkəmli publisisti Xəlil İbrahim barədə də geniş tarixi araşdırmalar, sənədlər və faktlar elmi-ictimaiyyətə təqdim edilir”.

# Sərhədlərin müəyyənləşməsi çətin proses olacaq

## “Rusiya və İran sərhədlərimizin yaxınlığında hərbi birləşmələr toplayır”



**Xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlama verib. Nazir bildirib ki, Azərbaycan-Ermənistan Birgə Sərhəd Komissiyasının növbəti iclasını komissiyaların sədrləri razılaşdırmalıdır. Birgə Sərhəd Komissiyasının gələcək iclaslarına dair razılaşma əldə edildikdən sonra onun yeri də müəyyən ediləcək.**

C.Bayramov qeyd edib ki, ümumilikdə sərhədlərin delimitasiyası çətin və vaxt aparan prosesdir. Ceyhun Bayramov əlavə edib ki, Sərhəd Komissiyasının formalaşdırılmasından öncə Ermənistan şərt irəli sürürdü ki, qoşunlar sərhəd bölgəsindən geri çəkilsin. Amma Azərbaycan prinsipial mövqeyini ortaya qoydu və qoşunlar yerində qaldı.

Müharibənin bitməsindən sonra hələ də sərhədlərin delimitasiya olunmaması və sülh müqaviləsinin şərtlərinə əməl edilməməsi əhali arasında narahatlıq doğurur.

**Nazirin bu xüsusda narahatlığının başadüşülən olduğunu deyən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə bildirib ki, postmüharibə ərəfəsində delimitasiya işlərinin sakit və rahat şəkildə aparılması asan proses deyil:** ”İki ölkə arasında delimitasiya və demarkasiya işlərinin aparılmasının mürəkkəbliyini dərk etmək üçün ilk növbədə hansı proseslərdən keçilməli olduqlarını təsəvvür etmək lazımdır. Komissiyalar yaradıldıqdan sonra tərəflər dəfələrlə görüşərək hansı prinsiplərdən və xəritələrdən başlayacaqlarını müəyyən etməlidirlər. Proses böyük masştablı, üzərində aydın təsvir olunan xəritələrdə coğrafi relyef və qurunun müəyyən su obyektləri, çaylar, göllər, bataqlıqlar, landşaftın digər elementləri dəqiq əks olunmalıdır. Bütün bunlar ilkin və vacib olan şərtlərdir. Prosesin münaqişəli tərəflər arasında baş verməsini nəzərə alsaq, üçüncü, dördüncü və s. tərəflərin müdaxiləsinin üzərinə gəlsək, durumun ciddi və çətin olduğunu anlamış olarıq. Hörmətli XİN rəhbərimiz Ceyhun Bayramovun bu xüsusda narahatlığı başadüşüləndir. Hazırda bizimlə qonşu olan Rusiya və İran sərhədlərimizin yaxınlığında müəyyən hərbi birləşmələr toplayır. İran növbəti təlimlərə başlayıb. Rusiya isə Tovuz rayonuna yaxın ərazidə hərbi baza qurmağı planlaşdırır. Təbii ki, biz bundan çox narazı və narahatıq. Eyni zamanda 10 Noyabr sazişinin yerinə yetirilməsində çətinliklər var. Laçın şəhərinin boşaldılması prosesi çətin gedir. Ermənilər Laçına və Zabux kəndində məskunlaşmış başqa ölkələrdən gətirilən keçmiş döyüşçü və terrorçuların Qarabağda qalması üçün hərəkətə keçib. Bu şəxslərin Azərbaycan vətəndaşlığını qəbul edərək yaşaması da doğru deyil. Qarabağda yalnız o erməni əsilli insanlar yaşamağa davam edəcək ki, onlar Rusiya imperiyası zamanı köçürülənlərdən olsunlar. Müharibə ərəfəsində Azərbaycanın Qarabağ ərazisinə gətirilərək məskunlaşdırılan ermənilər bu torpaqları tərk etməlidirlər. Bütün bu proseslər təbii ki, delimitasiya işlərinin sakit və rahat şəkildə aparılmasına maneçilik törədən şərtlərdəndir. Ən sonda isə komissiyaların razılaşdırdığı xəritələr parlamentlərdə ratifikasiya olunmalıdır. Bu da heç də düşündüyümüz kimi asan məsələ deyil. Ermənistan istənilən anda danışıqlardan qaça bilər”.

**Nihat Müzəffər**

# Qlobal böhran təhlükəsi daha da güclənəcək

## Dünya heç də asan olmayan iqtisadi fazaya daxil olur



**”Qlobal iqtisadi böhran riski daha da artmaqdadır”. Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat vurğulayıb ki, bir tərəfdən, bir sıra inkişaf etmiş ölkələrdə COVİD-19 virusuna yoluxma sayında yenidən artımlar var:**

”Digər tərəfdən Rusiya-Ukrayna müharibəsi Avrozona daxil olmaqla əksər aparıcı dövlətlərinin iqtisadiyyatına təsirsiz ötüşmür. Bu arada neft bazarı da qlobal risklərə reaksiyasız qalmır. ”Qara qızıl” iyul ayı başladıqdan sonra 6 faizə yaxın dəyər itirib. Rusiya-Ukrayna müharibəsi kontekstində 2022-ci il üçün qlobal iqtisadi artım proqnozu 4.1 faizdən 2.9 faizədək azaldılıb. Avropa İttifaqı üçün də builki proqnozlara yenidən baxılıb. İlin əvvəlində 4 faiz artım proqnozlaşdıran avropalılar bu göstəricini 2.8 faizədək azaldıblar. Bütün bunlar neftə olan tələbin azalacağı ilə bağlı bazar tərəddüdlərini artırıb. Bu da qiymətlərdə müşahidə olunmaqdadır.

Avro da kəskin ucuzlaşmaqdadır. Ukraynada savaş başladıqdan sonra avro 10 faiz ucuzlaşıb. Son 1 ildə isə Avropa pulu 19 faizdən çox dəyər itirib. Göründüyü kimi, valyuta bazarlarında da qeyri-stabillik davam edir. Qlobal iqtisadi tənəzzül və tərəddüdlər, o cümlədən bazarlardakı volatilik növbəti aylarda da davam edəcək. Rusiya-Ukrayna müharibəsinin uzanacağı halda qlobal böhran təhlükəsi daha da güclənəcək. Dünya heç də asan olmayan iqtisadi fazaya daxil olur”.

**İsmayıl**

# "Qanıq, Hasan, bir də Qaragöz"

Əflatun Amaşovun ilk romanının təqdimatı keçirilib





**Dünən Mətbuat Şurasının sədri Əflatun Amaşovun müəllifi olduğu ”Qanıq, Hasan, bir də Qaragöz” romanının təqdimatı keçirilib.**

Təqdimat mərasimində çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid deyib ki, uzun müddət Mətbuat Şurasının sədri vəzifəsində çalışan Əflatun Amaşov ilk dəfə bədii əsər yazıb və bu əsər çox peşəkar dildə qələmə alınıb.



Rəşad Məcid gələcəkdə Əflatun Amaşovun belə əsərlər yazacağına inandığını söyləyib.

**Xalq şairi Sabir Rüstəmxanlı Borçalı bədii dilində yazılan əsəri yüksək qiymətləndirib:** ”Azərbaycan bədii dili yarımçıqdır. Bədii dilimizin böyük Güney qolu var, bu gün ədəbi dilimizdən kənardadır. O cümlədən Borçalı bədii dilinin böyük potensialı var, o potensial də təqdim olunmalıdır”.

**Sabir Rüstəmxanlı qeyd edib ki, belə potensiala malik Əflatun Amaşov ədəbiyyata gec gəlməməli idi:** ”Əflatun Amaşov həm bu dünyanın adamıdır, həm də bu dünyanın adamı deyil. Əflatun Amaşov proseslərə insani yanaşır. Millət vəkili də oldu, yanaşması dəyişməyib”.

Bakı Dövlət Universitetinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri Cahangir Məmmədli **”Qanıq, Hasan, bir də Qaragöz” romanının real və mifik düşüncələrin məhsulu olduğunu vurğulayıb:** ”Əsər çox maraqlıdır. Bu, yeni üslubda yazılmış nəsr əsəridir. Əflatun Amaşova uğurlar arzulayıram”.

**”Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli,** ”Azəri-Türk” Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı əsərin orijinal üsluba malik olduğunu bildiriblər.

APA Media Qrupun rəhbəri Vüsalə Mahirqızı Əflatun Amaşovu roman münasibətilə təbrik edib, əsərin müasir üslubda yazılmasının diqqətçəkən olduğunu deyib. Vüsalə Mahirqızı Əflatun Amaşovun yaxşı dost, yaxşı media adamı olduğu kimi ədəbi prosesdə də uğur qazanacağına inandığını deyib: ”Məncə, insan bir sahədə peşəkardırsa, hər sahədə peşəkardır. İşində peşəkar olub, insan kimi qeyri-peşəkar, xaraktersiz olmaq olmaz. Mən şəxsən özümə münasibətdə Əflatun Amaşovun dostluğa sadiqliyini görmüşəm. Bizim ortaq dostlarımız Əflatun Amaşovun 1980-90-ci illərdə ümummilli lider Heydər Əliyevi tənqid edənlərə qarşı necə sərt mövqe nümayiş etdirdiyini həmişə xatırlayırlar. Bu gün də özümüzə, mediadakı çox insana münasibətdə mən həmin mərdliyi görürəm. Mən Əflatun Amaşova uğurlar arzulayıram. Ümid edirəm ki, bu əsərin davamı olacaq”.

**Yazıçı, ”Olaylar” qəzetinin baş redaktoru Yunus Oğuz** da əsəri yüksək qiymətləndirib.

**Romanın ərsəyə gəlməsindən danışan Əflatun Amaşov hər bir yazıçının içində peşəkar jurnalist olduğunu söyləyib:** ”Hər bir jurnalistin içində bir yazıçılıq var, bəzən inkişaf edir, bəzən inkişaf etmir. Markes, Ernest Heminquey də jurnalist olublar. Romana gəlincə, burada insanların şeytanlaşması, kənar dünyadan gələnlərin dünyanın faciəyə getməsini bildirməsi kimi məqamlar əksini tapıb. Bu da təsadüfi deyil, bu gün dünyada gedən proseslər də göz önündədir”.

**Əflatun Amaşov romanın onun iç dünyasını əks etdirdiyini vurğulayıb:** ”Roman trilogiyadır, bu, ilk kitabdır, davamı da olacaq”.



# Təxribatları önləməyin bir yolu qalıb

## Sülhə məcburetmə əməliyyatları keçirilə bilər

**44 günlük Vətən savaşı Müzəffər Ordumuzun qələbəsi ilə bitsə də, Ermənistan tərəfin təxribatları səngimir.**

İyulun 7-si axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub. Azərbaycan Ordusunun bölmələri adekvat cavab tədbirləri görüb. Qarşı tərəf susdurulub.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı ”Şərq”ə bildirib ki, hər bir dövlət kimi Ermənistanın da maraqları var:** ”Qarabağ Ermənistan dövləti üçün əsas məsələlərdən biri olduğuna görə, iddialarından asanlıqla əl çəkəcəkləri gözlənilmir. Artıq Qarabağ problemini tamamilə aradan qaldırmaq lazımdır. Doğrudur, Vətən müharibəsindən sonra qəti şəkildə Ermənistan-Rusiya tərəflərinin öhdəliyi ilə Dağlıq Qarabağ qarşıdurması başa çatmış sayıldı.

Amma görürük ki, ermənilər hələ də Qarabağ bölgəsində təxribat törətməkdən çəkinmirlər. Problemin tək həlli artıq Ermənistanın əraziyə təsir imkanlarını sıfırlamaqdır. Ermənistanın atdığı addımlarından dərs götürməsi obyektiv yanaşma tələb edir. Düşmən məkirli niyyətindən əl çəkmək istəmir.

Ermənistan beynəlxalq hüquq normalarına görə, dövlətlərarası münasibətlərdə təcavüzkar, işğalçı ölkədir. Dövlətimiz artıq həlledici addımlar atmalıdır. Yeri gəlsə, yenidən sülhə məcburetmə əməliyyatları da keçirilə bilər. Təbii ki, proses Vətən savaşı qədər genişmiqyaslı olmayacaq. Çünki bölgədə onsuz da Ermənistan hərbi birləşmələrinin gücü əvvəlki qədər deyil. Artıq gördülər ki, ordumuzun önündə dayana bilməzlər.

Sülhə məcburetmə şəklində kiçik bir hərbi miqyasda tədbir görülməli, ya da diplomatik olaraq, düşmənin qarşısına konkret seçim qoyulmalıdır. Nəticədə onların Qarabağ üzərindəki iddialarını, təsirlərini sıfıra endirmək və yekun sülh müqaviləsini imzalatmaq olar.

Beynəlxalq siyasət də buna tam uyğun deyil, amma Rusiya ilə Qərbin Ukraynada bir-biri ilə savaşması, Mərkəzi Asiyada siyasi gərginliklərin yaşanması, Çinin Qərb dövlətlərinə, xüsusən ABŞ-ın başına bəla olaraq, görülməsi, Çinin Afrika, Şərqi Avropa siyasəti kimi məsələlər artıq Qafqazda Azərbaycan və Türkiyənin öz milli maraqlarını qətiyyətli bir dil ilə tələb etməsinə imkan verir”.

**Sücayət Mehti**

# Millət vəkili narazılıq etdi

## Parlamentdə səslənən fikirlərin əksinə qərarlar qəbul olunur



**Fazil Mustafa:** “On minlərlə Azərbaycan vətəndaşı acınacaqlı vəziyyətə düşüb, yüz minlərlə insanın müalicə, istirahət hüququ pozulub. Əvvəlcədən bilet alıblar, amma ölkə xaricinə çıxa bilmirlər”

**Dünən Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclası keçirilib. Parlament Qurban bayramı münasibəti ilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanı təbrik edib. Sədr Sahibə Qafarova ölkə rəhbərliyinə gələcək fəaliyyətlərində uğurlar arzu edib.**

Deputatlar təbriki alqışlayıblar. Sahibə Qafarova bildirib ki, növbədənkənar sessiya dövründə Milli Məclisin 5 iclası keçirilib, 38 qanun və 6 qərar qəbul edilib. Qeyd edək ki, parlamentin payız sessiyasının iclası sentyabrın 30-u keçirilir. Əgər sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

**Milli Məclis Rusiya ilə müqaviləni təsdiq edib**

Parlamentin iclasında ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında” Müqavilənin təsdiq edilməsi məsələsi də müzakirəyə çıxarılıb. Müqavilə haqqında məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsini sədri Musa Quliyev bildirib ki, yeni təsdiq edilən müqaviləyə əsasən, həm Azərbaycan, həm də Rusiya tərəfdəki pensiya stajları toplanacaq və bu, vətəndaşlarımızın pensiyasının artımına da səbəb olacaq: ”Yəni proporsional şəkildə, hansı ölkədə neçə il əmək stajı olubsa, o ölkələr də buna uyğun ona pensiya ödənilməsində iştirak edəcəklər. Tutaq ki, Azərbaycan vətəndaşının 30 il stajı var, 20 il stajı Azərbaycanda, 10 ili də Rusiyada qazanıb, onun pensiyasının 1/3-i artıq Rusiya tərəfindən ödəniləcək”. Sənəd müzakirələrdən sonra səsverməyə qoyularaq qəbul edilib.

**“ATƏT-in Minsk qrupu fəaliyyəti dövründə heç bir iş görməyib”**

**Deputat Siyavuş Novruzov bildirib ki, ATƏT-in Minsk qrupu kimi ölünü yenidən diriltməyə çalışırlar:** ”Onlar son zamanda bu ölü təşkilatı diriltməyə çalışırlar və bu addımı ermənilərin xeyrinə atmaq istəyirlər. ATƏT-in Minsk qrupu fəaliyyəti dövründə heç bir iş görməyib, münaqişəni uzatmaqla məşğul olub. Bu təşkilat artıq ölüb, onun fatihəsin vermək lazımdır”.

**Göyçə, Zəngəzur, İrəvandakı toponimlərimizlə bağlı mühüm təklif...**

**Deputat Siyavuş Novruzov qeyd edib ki, Zəngəzur, Göyçə, İrəvan bölgəsindəki qədim adlarımız kütləvi şəkildə dəyişdirilib:** ”Bu istiqamətdə alimlərimiz kifayət qədər işlər görürlər, araşdırmalar aparırlar. Toponomiya komissiyası ilə birlikdə müzakirələr keçirib, həmin yer adlarının dəyişdirilməsiylə bağlı qərarlar qəbul etməliyik”. S.Novruzov əlavə edib ki, seçki dairələrində sosializm, bolşeviklərlə əlaqəli adlar da qalıb. Odur ki, həmkarlarına müraciətlə bu istiqamətdə araşdırma aparılmasını, həmin kənd adlarına da baxılmasını təklif edib: ”Payız sessiyasında bu məsələni müzakirə etmək lazımdır”.

**“Bu məntiqsiz qərarların dəyişdirilməsinə ehtiyac var”**

**Millət vəkili Fazil Mustafa parlamentin çıxışında bir sıra problemlərə diqqət çəkib.** Deputat vurğulayıb ki, parlamentdə səsləndirilən fikirlərin böyük əksəriyyəti ya diqqətdən kənarda qalır, ya da onun əksinə qərarlar qəbul olunur. F.Mustafa quru sərhədlərin açılması ilə bağlı təşəbbüslərin ziddinə olaraq qərarın verildiyini xatırladıb: ”On minlərlə Azərbaycan vətəndaşı acınacaqlı vəziyyətə düşüb, yüz minlərlə insanın müalicə, istirahət hüququ pozulub. Əvvəlcədən bilet alıblar, amma ölkə xaricinə çıxa bilmirlər. Ölkədə tədrisin 1 sentyabrda başlaması ilə bağlı qaldırdığı məsələ də həllini tapmır. Heç bir əsas gətirmədən vaxtilə qəbul olunmuş qərarı qüvvəsində saxlayırlar. Bu məntiqsiz qərarların dəyişdirilməsinə ehtiyac var”.

**”Konstitusiyanın işləməsi üçün optimal yol tapmalıyıq”**

**F.Mustafa Konstitusiyanın 30 və 51-ci maddələrinin, mülkiyyət və elmi fəaliyyət azadlığı ilə bağlı müddəaların da pozulduğunu bildirib:** ”Hər kəsin mülkiyyət hüququ və elmi fəaliyyətlə sərbəst fəaliyyət göstərmək haqqı var. Hansısa bir qayda ilə məmurların elmi fəaliyyəti qadağan olunub. Niyə olmaz? Siz plagiatın, oğurluğun qarşısını alın! Bizim yüzlərlə savadlı məmurumuz var. Vəzifədən gedir, elmi fəaliyyətlə məşğul olmaq, hansısa universitetdə dərs demək istəyir. Niyə onların qarşısı alınır? Biz Konstitusiyanın işləməsi üçün optimal yol tapmalıyıq ki, vətəndaşlarımızı sıxıntıdan qurtara bilək”.

**İsmayıl Qocayev**

# Yoluxma artsa, müvafiq addımlar atıla bilər

## Son bir həftə ərzində Azərbaycanda virusa tutulanların sayı 48 faiz artıb

**Dünyada olduğu kimi, Azərbaycanda da son günlərdə koronavirus infeksiyasına yoluxma hallarında artım müşahidə olunur. Bu səbəbdən ölkədəki epidemioloji vəziyyətlə bağlı Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.**



Məlumata görə,dünya ölkələrinin bütün səylərini koronavirus (COVID-19) infeksiyası ilə mübarizəyə və profilaktik tədbirlərə yönəltməsinə baxmayaraq, pandemiyanın qarşısını tam almaq hələ də mümkün olmayıb: ”Son günlərdə qeydə alınan statistik göstəricilərə əsasən, COVID-19 infeksiyasına yoluxanların sayında artım müşahidə olunur. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ötən həftə ərzində qlobal olaraq xəstəliyə yoluxma halları təxminən 20 faiz artıb. Dünyada müşahidə olunan yüksək artım fonunda ölkəmizdə həyata keçirilən mühüm preventiv tədbirlər, eyni zamanda əhalinin vaksinasiya prosesində aktiv iştirakı nəticəsində son bir neçə ay ərzində Azərbaycanda epidemioloji vəziyyətin sabit saxlanılmasına nail olunub”.

Birgə məlumatda son bir həftə ərzində Azərbaycanda yoluxma hallarının sayındakı 48 faiz artım xüsusi qeyd olunub. Ölkəmizdəki epidemioloji vəziyyət səhiyyə qurumları tərəfindən diqqətlə izlənilir və nəzarətdə saxlanılır: ”Yoluxma dinamikası intensivləşdiyi təqdirdə müvafiq addımların atılması məsələsinə baxıla bilər.

Əlavə olaraq bildirilib ki, respublikamızda virusla mübarizə tədbirləri çərçivəsində mövcud maddi-texniki baza, dərman təchizatı və kifayət qədər çarpayı fondu var.

Qeyd edək ki, COVID-19 infeksiyasına yoluxmuş şəxslər əksər hallarda xəstəliyi yüngül, lakin bəzi insanlar (yaşı 65-dən yuxarı olan və hər hansı bir yanaşı xəstəliyi olanlar) nisbətən ağır keçirirlər. Risk qrupuna daxil olan vətəndaşlara sanitar-gigiyenik qaydalara ciddi əməl etmələri, koronavirusun əlamətlərini hiss etdikdə ilk növbədə sahə həkimlərinə məlumat verməleri və test nümunələrinin götürülməsi üçün müraciət etmələri tövsiyə olunur.

Səhiyyə qurumları vətəndaşları virusdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq gücləndirici (”buster”) doza ilə peyvəndləməyə çağırır.

“Vəziyyəti idarə etmək mümkün olacaq, Azərbaycanda koronavirusa kütləvi yoluxma ehtimalı çox aşağıdır”

Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına riayət olunması tövsiyə edilir. Unutmayaq ki, fiziki məsafənin saxlanılması və şəxsi gigiyenik qaydalara əməl olunması virusun mutasiyasından asılı olmayaraq xəstəlikdən qorunmağın yeganə yoludur”.

Qeyd edək ki, Avropanın bir sıra ölkələrini SARS-CoV-2 koronavirusunun yeni dalğası bürüyüb. Avropa Dərman Agentliyinin departament rəhbəri Marko Kavalerinin sözlərinə görə, infeksiyanın yayılmasına son dərəcə yoluxucu olan ”omikron” ştamının - BA.4 və BA.5 alt növləri səbəb olur. Avropa ölkələrində BA.4 və BA.5 variantlarının dominant olacağı gözlənilir və çox güman ki, iyulun sonuna kimi bütün digər variantları sıxışdıracaq. Mütəxəssisin sözlərinə görə, hazırda ”omikron” ştamının bu yarımtiplərinin ağır xəstəlik riskinin artmasına dair heç bir sübut yoxdur, lakin yaşlılar arasında yoluxma hallarının sayı artır ki, bu da ağırlaşmaya səbəb olur.

Mütəxəssislər isə hesab edir ki, epidemioloji sabitlik pozulsa belə, Azərbaycanda koronavirus infeksiyasına yenidən kütləvi yoluxma ehtimalı hələlik yoxdur.

**İnfeksionist-hepatoloq Mərdan Əliyevin sözlərinə görə, yoluxma sayında müəyyən artım müşahidə olunsa da, hazırda Azərbaycanda vəziyyət qənaətbəxşdir:** ”Əsas səbəblər immunitetin aşağı düşməsi, xəstəliyə həssaslığın artmasıdır. Yay fəslində artım qeydə alınsa da, sürətli olacağı ehtimalı aşağıdır. Payız fəslində yoluxma dinamikası yüksək ola bilər, amma əvvəlki dövrlə müqayisədə nəzərəçarpan dərəcədə olmayacaq çünki kollektiv immunitet formalaşıb. Yoluxma artsa belə, birdən-birə olmayacaq, tədricən olacaq. Yoluxanlar isə xəstəliyi yüngül keçirəcəklər. Nəzərə almalıyıq ki, ölkədə COVID-19 əleyhinə vaksinasiyaya prosesi bu gün də davam edir. Eyni zamanda xəstəliyə yoluxanların sayı kifayət qədərdir. Bu da o deməkdir ki, əhalinin kütləvi immuniteti yaranıb. Ona görə yenidən kütləvi yoluxma ehtimalı hələlik yoxdur”.

İnfeksionistin sözlərinə görə, hazırda yeni bir ştamm haqqında məlumat yoxdur. Son dövrlərdə yayılan artımın omikron variantı və ondan öncəkilərlə bağlı olduğu düşünülür. Ümid edirik ki, vəziyyət indiki kimi idarəolunan dərəcədə qalmaqda davam edər”.

**Şəymən Bayramova**

# Postmüharibə mərhələsində xarici siyasət: *yeni çağırışlar və sülh perspektivləri*




**Azərbaycanın qırx dörd günlük Vətən müharibəsindəki Zəfərindən sonra Cənubi Qafqazda yeni geosiyasi mənzərənin və dinamikanın yaranmaqda olduğu barədə dünyanın nüfuzlu beyin mərkəzlərinin, tanınmış ekspertlərin fikirləri böyük maraq doğurur. Ekspertlər bu prosesin müxtəlif aspektlərini geosiyasi-nəzəri kontekstdə analiz etməkdədirlər.**

Məsələyə Azərbaycanın xarici siyasətinin yeni çalarları aspektində yanaşanda isə bizim üçün çox əhəmiyyətli olan və regional geosiyasi dinamikanı keyfiyyətcə yeni səviyyəyə yüksəldə bilən faktorları görmək mümkündür. Həmin kontekstdə İkinci Qarabağ müharibəsindən sonra postmüharibə mərhələsi adlandırılan dövrdə Azərbaycanın xarici siyasətinin bir sıra konseptual aspektlərinin analizinə ciddi ehtiyac görürük. Biz təhlilimizi silsilə yazılarda aparmaq niyyətindəyik.

Müharibədən sonrakı reallıqlar: Azərbaycanın beynəlxalq aləmdə yeni statusu

Ekspertlərin qənaətinə görə, Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi Zəfərdən sonra ölkənin xarici siyasətində yeni çalarlar özünü göstərməkdədir. Bu yenilik, faktiki olaraq, Azərbaycan Respublikasını müstəqil dövlət olaraq beynəlxalq aləmdə yeni statusa yüksəltməyə xidmət edir. Aydındır ki, prosesin özü geosiyasi aspektdə kifayət qədər mürəkkəb və çətindir. Çünki hazırkı tarixi mərhələdə xarici siyasətdə keyfiyyət dəyişikliyi etmək ən müxtəlif faktorları nəzərə almağı tələb edir.

Məhz buna görədir ki, ekspertlər vurğulayırlar ki, indiki mərhələdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi böhranlı və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Azərbaycan regionun yeganə ölkəsidir ki, iki səviyyədə uğurlu addımlar atır: Bakı düşünülmüş daxili və xarici siyasəti ilə iqtisadi sistemini təkmilləşdirir və inkişaf etdirir, eyni zamanda, regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Onun konkret siyasi-nəzəri məzmunu mövcuddur.

Bu gedişatı geosiyasi dinamika müstəvisində iki tezisdə aşağıdakı kimi ümumiləşdirə bilərik: birincisi, Azərbaycan rəhbərliyinin reallaşdırdığı enerji layihələri və regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır; ikincisi, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktiki fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Vurğulanan vəziyyətə geosiyasi-nəzəri kontekstdə baxanda, həmin tezislərin bir-biri ilə sıx bağlı olduğunu və bir-birini praktiki fəaliyyət müstəvisində tamamladığını deyə bilərik. Belə ki, Azərbaycan yeni regional geosiyasi kursun formalaşması üçün regional sabitliyi təmin etmək əsasında konstruktiv sülhyaratma mühiti yaratmaq üçün addımlar atır. Özlüyündə bu mərhələlərin hər biri kifayət qədər sistemli və yenilikçi siyasi-diplomatik kurs həyata keçirməyi tələb edir.

Bu baxımdan regional sabitliyi təmin etmək asan məsələ kimi görünmür. Məsələ ondan ibarətdir ki, hazırkı mərhələdə regional sabitlik bir neçə yüzildir ki, Cənubi Qafqazda hökmranlıq edən böyük güclərin və onların buradakı əlaltısı Ermənistanın yeni tələbləri qəbul edib, ona uyğun davranmasını nəzərdə tutur. Məsələn, ilk baxışdan adi görünən "başqa dövlətin daxili işlərinə qarışmamaq" və ya "sərhədləri dəqiqləşdirmək", "kommunikasiyaları qarşılıqlı faydalı əməkdaşlıq prinsipinə uyğun açmaq" kimi tələblərə əməl etmək asan deyil. Nə Ermənistanın ənənəvi havadarları, nə də rəsmi İrəvan bu cür konstruktivliyi əməldə asanlıqla qəbul etmək istəmirlər.

Deməli, Azərbaycan xarici siyasətində regional miqyasda sabitliyin təmin edilməsini əsas məqsədlərdən biri kimi qəbul edirsə, Zəfər əldə etmiş regional lider kimi yeni səviyyədə nəzəri, diplomatik, siyasi və praktiki addımlar atmalıdır. Bu yolda Azərbaycanla səmimi qoşa addım atan tək dövlət isə Türkiyədir. Bu o deməkdir ki, rəsmi Bakı başqa faktorlarla yanaşı, iki türk dövlətinə qısqanclıqla yanaşanların neqativ təsirini neytrallaşdırmaq kimi bir yükü də daşımalıdır.

Bu kimi məqsədlərə çatmaq üçün Prezident İlham Əliyev, ekspertlərin yekdil rəyinə görə, çox səmərəli və uğurlu xarici siyasət strategiyası müəyyən edib. Konkret olaraq, dövlət başçısı Azərbaycanın dünya birliyinə sıx inteqrasiyasını başlıca hədəf olaraq seçib, bunun reallaşması mexanizminin isə iki aspektini müəyyənləşdirib. Onlardan biri Azərbaycanın dövlətlərarası regional və beynəlxalq əlaqələrdə daha yaxından, daha əhatəli və sistemli iştirakını təmin etməkdən ibarətdir. Digəri isə siyasi-diplomatik fəaliyyətdə Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri geosiyasi inteqrasiya aspektində yeni şəraitə uyğun tətbiq etməklə bağlıdır.

Məhz həmin səbəbdəndir ki, Azərbaycan dövləti dünya təcrübəsini dərindən araşdıraraq özünün iqtisadi və siyasi inkişaf modelini daha dinamik edir və məzmununu dəyişən şəraitə uyğun olaraq yeniləşdirir. Bunun fövqündə isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qorumaq şərti ilə dövlətlərarası əlaqələrini qurur, ona yeni dinamika verir.

Bütün bunların konkret nəticələri mövcuddurmu? Bəli, mövcuddur və onların bir qismini vurğulamaqla bütöv mənzərəni təsəvvür etmək mümkündür. Öncə deyək ki, həyata keçirilən qlobal miqyaslı tədbirlər Azərbaycanın dünya miqyasında geosiyasi nüfuzunu xeyli artırıb. Öncələr Azərbaycana bir qədər laqeyd və qərəzli yanaşan böyük dövlətlər belə indi Bakıya çox hörmətlə münasibət göstərirlər. Onlar bir-birinin ardınca Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını ifadə edirlər. Bu bağlılıqda ABŞ, Böyük Britaniya, Rusiya, İran, Çin və digər böyük dövlətlərin başçılarının Prezident İlham Əliyevə ünvanladıqları məktublardakı təklifləri vurğulaya bilərik.

Məsələn, ABŞ-ın Prezidenti Co Bayden Respublika Günü münasibəti ilə dövlət başçısı İlham Əliyevə ünvanladığı təbrik məktubunda Vaşinqtonun Bakı ilə əlaqələri yeni səviyyəyə yüksəltməkdə maraqlı olduğunu açıq ifadə edib. Avropa İttifaqının yüksək səviyyəli rəsmi şəxsləri də dəfələrlə Azərbaycanı yaxın tərəfdaş adlandırmaqla yanaşı, müxtəlif sferalarda, o cümlədən enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı inkişaf etdirməkdə son dərəcə maraqlı olduqlarını bəyan ediblər.

Türkiyə ilə Azərbaycanın münasibətləri bütün dünyaya nümunədir. Bu iki qardaş ölkə müstəqil dövlətlər kimi qarşılıqlı faydalı əməkdaşlığın ən gözəl nümunəsini göstərirlər. Bu səbəbdən bu məqalədə Ərdoğan-Əliyev münasibətləri üzərində geniş dayanmağa ehtiyac görmürük. Burada onu vurğulayaq ki, iki qardaş dövlət arasında imzalanmış Şuşa Bəyannaməsi Cənubi Qafqazda yeni geosiyasi mənzərənin arxitekturasının müəyyənləşməsində həlledici rol oynadı. Şuşa Bəyannaməsi birmənalı olaraq Azərbaycan-Türkiyə əməkdaşlığının sərhədlərini aşır. Bu sənəd bütövlükdə XXI yüzildə Cənubi Qafqazda geosiyasi düzənin məntiqini və strukturunu müəyyən edir.

Həmin kontekstdə Rusiya-Azərbaycan münasibətlərinin yeni müsbət dinamikasından bəhs etməyə dəyər. Prezident Vladimir Putin Azərbaycan rəhbərinə ünvanladığı məktubda İlham Əliyevin şəxsiyyətinə, siyasətinə, konkret olaraq, Rusiya istiqamətində yeritdiyi xəttə çox böyük qiymət verdiyini açıq və səmimi ifadə edib. İki qonşu dövlət strateji müttəfiq kimi əməkdaşlığı inkişaf etdirməkdədirlər. Son olaraq, Azərbaycan və Rusiya informasiya təhlükəsizliyi sahəsində əməkdaşlığı yeni səviyyəyə yüksəltməyi müzakirə edirlər.

Eyni zamanda, Azərbaycanla Rusiya iqtisadi, elmi, mədəni və digər istiqamətlərdə qarşılıqlı faydalı proqramları reallaşdırırlar. Artıq birmənalı və qətiyyətlə demək olar ki, Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsas, real, həqiqi və perspektivli tərəfdaşıdır. Bunun geosiyasi və siyasi-hərbi əhəmiyyəti son dərəcə böyükdür. Çünki Rusiya, faktiki olaraq, Cənubi Qafqaza qonşu olan və daha çox təsirə malik güclü dövlətdir. Onunla strateji əməkdaşlığı konstruktiv istiqamətə yönəltmək vacibdir. Məhz bu baxımdan Şuşa Bəyannaməsi ilə yanaşı, Azərbaycanla Rusiyanın strateji müttəfiqliyini hüquqi olaraq təsbit edən müqavilə tarixi əhəmiyyətə malikdir. Prezident İlham Əliyev atdığı ardıcıl və səmimi addımlar ilə buna nail olub.



Qeyd etmək lazımdır ki, xüsusilə postmüharibə mərhələsində xarici siyasətdə bu əlamət özünü daha çox göstərməkdədir. Rəsmi İrəvanın tərəddüdlü və sistemsiz mövqeyi fonunda Bakının aydın və inamlı siyasəti öz bəhrəsini verməkdədir.

Eyni fikirləri biz Azərbaycan-İran münasibətləri haqqında da deyə bilərik. Azərbaycan qonşu İran istiqamətində kifayət qədər rasional, konstruktiv və faydalı əməkdaşlığa istiqamətlənmiş siyasət yeridir. Prezident İlham Əliyev bu barədə dəfələrlə fikir bildirib. Qırx dörd günlük Zəfər müharibəsindən sonra rəsmi Tehran bir qədər tərəddüdlü mövqe tutmuşdu. Bu qeyri-müəyyənliyin aradan qaldırılmasında və iki yaxın qonşu dövlətin konstruktiv müstəvidə əməkdaşlığını yeni səviyyəyə yüksəltməsində məhz İlham Əliyevin xarici siyasət xəttini inkişaf etdirməkdə tutduğu qətiyyətli mövqe prinsipial rol oynadı.

Hazırda Azərbaycanla İran arasında əlaqələr iki ölkə üçün müsbət bir istiqamətdə inkişaf etdirilir. Aşqabadda keçirilən Xəzəryanı dövlətlərin sammiti də göstərdi ki, rəsmi Bakı bu hövzədə yerləşən ölkələrlə beynəlxalq hüquq normaları çərçivəsində əməkdaşlığı inkişaf etdirməkdə qərarlıdır. O cümlədən Xəzərin hüquqi statusunun müəyyən edilməsində Azərbaycan rəhbərliyi ənənəvi konstruktiv, sivil və faydalı əməkdaşlığa istiqamətlənmiş mövqeyindən zərrə qədər də geri çəkilməyib.

Gürcüstan istiqamətində Azərbaycanın strateji maraqlar çərçivəsində əməkdaşlığı inkişaf etdirmək xətti davam edir. İkinci Qarabağ müharibəsindən sonra rəsmi Bakının xarici siyasətində həmin məzmun yeni səviyyəyə yüksəlməkdədir. Belə ki, iki qonşu ölkənin rəhbərləri strateji əməkdaşlığı dərinləşdirmək və daha da genişləndirmək aspektində müzakirələr aparıblar. Onların hər birində Azərbaycan rəhbərliyi seçdiyi xəttə sadiqliyini nümayiş etdirib. Gürcüstan tərəfi də regionda sülh və sabitliyin təmin olunması üçün təşəbbüslərini əsirgəmir.

Rəsmi Tbilisi Azərbaycan-Ermənistan-Gürcüstan formatında əlaqələrə konkret məzmun çalarları gətirmək üçün səylərini əsirgəmir. Və bu zaman Azərbaycanın maraqları ciddi surətdə nəzərə alınır. Bu cür təmaslar dövlət başçıları və nazirlər səviyyəsində davam etdirilir. Hazırda Gürcüstan Azərbaycanın Cənubi Qafqazda başlıca strateji tərəfdaşı rolunu oynamaqdadır.

Yeni əməkdaşlıq formatları və təhlükəsizlik: xarici siyasətdə sintezi

Nəhayət, Azərbaycanın regionda sabitliyin təmin edilməsinə yönəlmiş siyasətində postmüharibə mərhələsində Ermənistanla münasibətlərin normallaşdırılması aspekti mühüm yer tutur. Məsələnin bu tərəfi həm də ona görə əhəmiyyətlidir ki, Azərbaycan Ermənistanı savaş meydanında məğlub etmiş dövlət kimi son dərəcə konstruktiv və humanist davranır. Bunu ekspertlər daim vurğulayırlar.

Belə ki, rəsmi Bakı Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyasına böyük diqqət yetirir, bu zaman beynəlxalq hüquq normalarına və sənədlərə əməl olunmasına tam riayət edir. Paralel olaraq, Azərbaycan kommunikasiyaların açılması istiqamətində təsirli və tutarlı addımlar atır. Məsələn, Azərbaycan yeni Laçın dəhlizini vaxtından əvvəl hazırlamaqla ara qarışdırmaqda maraqlı olan dairələrin bir bəhanəsini önləyir.

Eyni zamanda, Zəngəzur dəhlizinin açılması məsələsini bütün ciddiyyəti ilə masaya qoyur. Azərbaycan Prezidenti açıq və qətiyyətlə ifadə edir ki, Zəngəzur dəhlizi açılmasa heç bir sabitlik, barış və sülhdən bəhs etmək mümkün deyildir. Bu fikri regionun böyük dövlətləri dəstəkləyirlər. Çünki həmin dəhlizlə həm Azərbaycanın Naxçıvana birbaşa çıxışı təmin edilir, həm də beynəlxalq layihələrin reallaşmasında yeni mərhələ başlayır.

Hazırda Ermənistanla münasibətlər məsələsinə ekspertlər Azərbaycanla Türkiyənin təklif etdiyi və Rusiya ilə İranın dəstəklədiyi "3+3" əməkdaşlıq formatı çərçivəsində baxmağa daha çox meyillidirlər. Yeni olan həmin format daha geniş geosiyasi funksionallıq imkanlarına malikdir. Bundan başqa, "3+3" platforması tarixi baxımdan regionun "geosiyasi aurasını" dəyişə bilər. Belə ki, son bir neçə yüzildə ilk dəfə olaraq Rusiya, Türkiyə və İran bir formatda perspektivli əməkdaşlıq müstəvisinə gətirilir. Nəzərə alaq ki, bu, Azərbaycanın postmüharibə mərhələsində xarici siyasətdə həyata keçirdiyi yeni əməkdaşlıq və təhlükəsizlik proqramlarından qaynaqlanır.

Bunun fonunda Azərbaycan-Türkiyə-Qazaxıstan nümayəndələrinin Bakıda müzakirələrdən sonra gəldikləri bir nəticə böyük önəm kəsb edir. Biz bu üç qardaş dövlətin "Yeni İpək Yolu" layihəsində "Orta dəhliz" adlandırılan marşrutu yaratmaqda birgə fəaliyyət göstərmələri haqqında gəldikləri razılığı nəzərdə tuturuq. Azərbaycan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Türkiyə Respublikasının xarici işlər nazirləri və nəqliyyat sahəsi üzrə məsul nazirlərinin ilk üçtərəfli görüşünün yekununda birgə Bakı Bəyannaməsi imzalanıb. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun ("Orta dəhliz"), Azərbaycan, Türkiyə və Qazaxıstan üçtərəfli platformasının yaradılması qərara alınıb ki, bu dövlətlər arasında ticarət əlaqələri daha da sürətlənəcək. Ekspertlərin qənaətinə görə, Bakı Bəyannaməsi ciddi işbirliyinin irəli aparılmasına böyük töhfə verəcək.

Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra Mərkəzi Asiyanın başqa bir böyük dövləti olan Özbəkistanla əlaqələrini daha yüksək səviyyəyə qaldırır. Prezident İlham Əliyevin Özbəkistana son səfərində iki ölkə arasında strateji xarakterli sazişlər imzalandı. Azərbaycan və Özbəkistan geniş və dərin əməkdaşlıq formatına keçirlər. O cümlədən enerji təhlükəsizliyi və hərbi təhlükəsizlik aspektlərində ortaq layihələrin reallaşdırılması nəzərdə tutulur.

Bu istiqamət Cənubi Qafqazla Mərkəzi Asiyanın geosiyasi, iqtisadi və təhlükəsizlik istiqamətlərində inteqrasiyasına ciddi töhfə verəcəkdir. Bunun üçün, əlbəttə, həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada sabitlik təmin olunmalıdır. Deməli, iki dövlət vurğulanan aspektdə də əməkdaşlığı yeni səviyyəyə yüksəltməlidirlər.

Belə bir perspektivin geosiyasi və siyasi əsası mövcuddurmu? Bəli, mövcuddur və qürurvericidir ki, həmin təməl (baza) Azərbaycan rəhbərliyinin davamlı olaraq həyata keçirdiyi xarici siyasət modelinin konkret nümunəsinə əsaslanır. Bu, Prezident İlham Əliyevin ikitərəfli, üçtərəfli və dördtərəfli əməkdaşlıq formatlarını, regional və beynəlxalq təşkilatlarda həyata keçirdiyi "şəbəkə diplomatiyası"nı özündə ehtiva edir.

Artıq bir neçə ildir ki, Prezident İlham Əliyev ardıcıl surətdə ikitərəfli, üçtərəfli və dördtərəfli yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edir. Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Rusiya-İran, Azərbaycan-Rusiya-Türkiyə, Azərbaycan-Türkiyə-İran-Rusiya, Azərbaycan-Gürcüstan-İran-Türkmənistan, Azərbaycan-Türkiyə-İran-Türkmənistan və digər üçtərəfli və dördtərəfli əməkdaşlıq formatları buna əyani sübutdur. Azərbaycan Prezidenti nəinki nəzəri səviyyədə bu formatları irəli sürür, eyni zamanda, onların reallaşması üçün konkret addımlar atır. Sevindiricidir ki, artıq onların əksəriyyəti regional sabitlik və əməkdaşlıq üçün öz bəhrəsini verməyə başlayıb.

Daha önəmli məqam ondan ibarətdir ki, Azərbaycanın xarici siyasətinin bu önəmi üç istiqamətdə - beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət, Avropa və Çin istiqamətlərində özünü təsdiq edir. Onlar "şəbəkə diplomatiyası"nın müxtəlif çalarlarını təşkil edirlər.

Beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətlə bağlı ekspertlər daha çox rəsmi Bakının Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində oynadığı fəal rolu, irəli sürdüyü təşəbbüsləri vurğulayırlar. Məlumdur ki, indiki mərhələdə dünyada cərəyan edən bir sıra narahatlıq doğuran hadisələr fonunda Qoşulmama Hərəkatının dünya müstəvisində rolunun artırılmasına ehtiyac duyulur. 120 dövlətin üzv olduğu Qoşulmama Hərəkatı beynəlxalq arenada bölünmələrə və qütbləşməyə qarşı öz təsirini göstərir. Bu təşkilat fəal surətdə dünya ölkələrini sülhün və əməkdaşlığın təmin olunmasına təşviq edir.

Buna görədir ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının əhəmiyyəti danılmazdır. "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan konfransa 40-dan çox ölkənin parlament nümayəndə heyətlərinin, 9 beynəlxalq parlament təşkilatının təmsilçiləri qatılıblar.

Konfransın ilk günündə bu mühüm beynəlxalq tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev təşkilatın qarşısında duran çağırışlar və təşkilata rəhbərlik edən Azərbaycanın təklifləri barədə məlumat verib. Prezident qeyd edib ki, "Azərbaycan həm regional, həm də qlobal məsələlərdə öz mövqeyini həmişə nümayiş etdirir. Qoşulmama Hərəkatının sədri kimi biz ədalətsizliyə qarşı, beynəlxalq hüququn müdafiəsi üçün mübarizəmizi davam etdirəcəyik".

Azərbaycan Prezidenti vurğulayıb ki, "Biz Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi zamanı üzvlərin yekdil həmrəyliyini gördük. Ölkəmizin təşkilata sədrlik müddətinin uzadılması həm də üzv dövlətlər tərəfindən Azərbaycana dəstəyin göstəricisidir". Dövlət başçısı BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatının əhəmiyyəti, Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü təmin etməsi, ölkəmizin hərəkata sədrliyi dövründə səmərəli fəaliyyəti barədə fikirlərini tədbirdə ifadə edib. Həmin fikirlərdə Qoşulmama Hərəkatı qlobal miqyasda üç böyük düşərgədən biri kimi təqdim olunub. Azərbaycanın dövlət başçısı Qoşulmama Hərəkatının BMT-də fəaliyyətini yeni səviyyəyə yüksəltməyin zamanının çatdığını deyib.

Beynəlxalq təşkilatlarda fəaliyyətin keyfiyyətcə yeni mərhələyə daxil olması ilə yanaşı, xarici siyasətdə Avropa və Çin istiqamətlərində aktivliyin daha da artması və faktiki olaraq, Azərbaycanın regional sabitlikdən sülhyaratma imkanlarına keçid perspektivinin meydana gəlməsi baxdığımız kontekstdə ciddi rol oynayır. Bu məqamlar üzərində bir qədər geniş dayanmaq lazım gəlir.

*(davamı var)*

**Kamal Adıgözəlov**

# "Böyük iyirmilərin" toplantısı qərarsızdır

## Bu platformada Rusiya və Çinin iştirakı ortaq qərarların qəbulunu çətinləşdirir




**İndoneziyanın Bali şəhərində "böyük iyirmilərin" xarici işlər nazirlərinin görüşü keçirilib. "Böyük iyirmilər"də Rusiya da təmsil olunub. Bu səbəbdən "böyük iyirmilər" iki qrupa bölünüb.**

Birinci qrupda Rusiyanı boykot edənlər, ikinci qrupda Rusiyanın tərəfdaşları yer alıblar. Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəyə görə toplantıya qatılan xarici işlər nazirlərinin bir qismi rusiyalı həmkarları ilə görüşməyəcəklərini deyiblər. Qərb ölkələrinin bir qismi hətta Rusiyanın "böyük iyirmlər"dən uzaqlaşdırılmasını təklif edib. Böyük Britaniya, Almaniya, Fransa, Kanada, ABŞ, İtaliya və Yaponiyanın xarici işlər nazirləri rusiyalı həmkarlarıyla bir masada oturmamaq üçün ev sahibinin təşkil etdiyi ziyafətdə iştirak etməyiblər. Buna baxmayaraq, bir qisim ölkə bunun əleyhinə çıxaraq Rusiyanın tam təcrid edilməsinin doğru olmadığı qənaətindədir.

**"Atlas" Araşdırmalar Mərkəzi Elxan Şahinoğlu deyib ki, "Böyük iyirmilər" adətən qlobal mövzuları müzakirə edirlər. Analitikin sözlərinə görə, böyük dövlətlərin nazirləri dünyadakı iqtisadi problemi və pandemiya ilə mübarizənin hazırkı durumu ətrafında fikir mübadiləsi aparırlar**: "Qərb ölkələri Rusiyanın Ukraynaya qarşı apardığı işğalçı müharibənin dayandırılmasını tələb etsələr də, bunu rusiyalı nazirin iştirakıyla müzakirəsini mümkün hesab etmirlər. Nazirlər ikitərəfli görüşlər də həyata keçirirlər. Rusiyanın xarici işlər naziri çinli və türkiyəli həmkarlarıyla görüşüb. Sergey Lavrov ilk görüşü çinli həmkarı Van Yi ilə keçirməklə Moskva-Pekin münasibətlərinin strateji əhəmiyyət kəsb etdiyini vurğulamağa çalışıb. Kreml Çini yanında tutmağa çalışır. Ancaq bu, asan deyil. Çünki Pekin Kremldən fərqli olaraq Qərblə bütün körpülərini yandırmaq istəmir. Çin lideri Tsi Sinpinin koronavirus bəhanəsi ilə Moskvaya səfərdən imtina etməsi Kremlin narahatlığına səbəb olub".

*E.Şahinoğlu bəyan edib ki, Sergey Lavrov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdə Ukraynadakı və Qara dəniz ətrafındakı vəziyyəti müzakirə edib:* "Ankara əvvəlkitək Ukrayna taxılının təhlükəsiz şəraitdə dünya bazarlarına çıxarılmasını təmin etməyə çalışır. Hələ ki, bu alınmır. Rəsmi Kiyevin son zamanlar Türkiyəyə münasibəti bir qədər dəyişib. Kiyev şübhələnir ki, Rusiya Ukraynadan oğurladığı taxılı Türkiyənin limanlarına daşıyır və guya, Ankara buna göz yumur. Bu məsələ ilə bağlı Türkiyənin səfiri Ukrayna Xarici İşlər Nazirliyinə çağrılıb. Ukraynanın Türkiyədəki səfiri də son zamanlar iki ölkə arasındakı münasibətlərdə suallar yaradan məqamlara toxunub. Kiyev Ankaranın Moskva ilə dialoqu davam etdirməsindən narahatdır. Türkiyə Qərbin Rusiyaya qarşı sanksiyalarına qoşulmayıb. Bunun siyasi və iqtisadi səbəbləri var. Beləliklə, "böyük iyirmilərin" toplantısı sadəcə simvolik əhəmiyyət daşıyır. "Böyük yeddilər"də fikir birliyi mövcuddur və orada ortaq qərarlar qəbul etmək asandır. "Böyük iyirmilər"də Rusiya və Çinin iştirakı ortaq qərarların qəbulunu çətinləşdirir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

# Radio çox ciddi təbliğat və təşviqat vasitəsidir

## Türkiyədəki kimi Azərbaycanda da ixtisaslaşmış radiokanalların qurulması ümumi işin xeyrinə olardı

**Bu gün dünyanın hər yerində, həm də bütün səviyyələrdə informasiyaları əldə etmək və onları sərfəli istiqamətlərə yönəltmək sahəsində birinciliyə sahib olmaq uğrunda əsl yarış gedir. Bu baxımdan televiziya və radio geniş imkanları olan, hər cür informasiyanı bir an içərisində bütün dünyaya yaymaq qüdrətinə malik çox mühüm bir vasitədir. Xüsusən də, radio media və kommunikasiya kanallarında mühüm yer tutur.**

Radio stansiyaları bir-birindən fərqləndirən əsas amil onların formatıdır. Bu format iki vacib elementi - məzmunu və auditoriyanı, yəni stansiyanın nəyə və kimə xidmət etdiyini təsvir edir. Bu bölgü həm də musiqi məzmununa və ya auditoriyanın yaş təbəqəsinə görə də aparıla bilər.

Razılaşaq ki, indiki dövrdə çoxşaxəli internet xidmətlərinin təsir imkanları nə qədər artsa da, radiolar yenə də insanların ən geniş, həm də bütün təbəqələrinin daha çox təmasda olduğu və xidmətlərindən faydalandığı informasiya vasitələrindən biri olaraq qalmaqdadır. Radio hər zaman özünün rəngarəng proqramları ilə insanları düşündürmək, maarifləndirmək, tərbiyələndirmək, əyləndirmək, zərurət yarandıqda isə həm də səfərbər etmək imkanına malikdir. Ona görə də radionun imkanlarından maksimum dərəcədə səmərəli və məqsədyönlü istifadə olunması dövlətin və millətin tərəqqisi üçün çox önəmli məsələdir.

Çağdaş radio-jurnalistikanı internetdən ayrı təsəvvür etmək mümkün deyil, çünki internetin yaranması ilə radio yeni və hüdudsuz bir arena, həm də əlavə texnoloji imkanlar qazanıb. Hazırda radio yayım daha keyfiyyətli səs almağa imkan verən geniş mərkəzi rəqəmsal serverlərdən aparılır. İndi internet sayəsində minlərlə radiostansiya geniş auditoriya dilimlərinə xidmət etməkdədir. Bu gün universitet tələbələrinin radiostansiya yaratması, internet radioya sahib olmaları, öz verilişləri ilə efirə çıxmaları nisbətən əlverişli və ucuz başa gəlir. Digər tərəfdən sosial media da radioya, bu sahədə çalışan jurnalistlərə öz diktəsini edir.

Ümumiyyətlə, radioda mühit texniki cəhətdən çox əlverişlidir və proqramların canlı yayımda nümayişi üçün ideal şəraitə malikdir.

Qeyd edək ki, Azərbaycan Respublikası Audiovizual Şurası üç ümumölkə yerüstü radio yayımçısı lisenziyasının alınması üçün müsabiqələr elan edib.

Audiovizual Şuranın ötən iclasında radio yayımı üçün yararlı olan, boş radiotezliklərin istifadəsi məsələsinə baxılıb və Şura üzvləri yeni ümumölkə yerüstü radio yayımçılarının fəaliyyətinin mümkünlüyü qənaətinə gəliblər. Aparılan müzakirələrdən sonra yayım üçün yararlı radiotezlik resurslarından səmərəli istifadə olunmasını təmin etmək, həmçinin ümumölkə miqyasında radio yayımında müxtəlifliyin inkişafına nail olmaq məqsədilə üç yeni ümumölkə yerüstü radio yayımçısı lisenziyasının alınması üçün "Media haqqında" qanunun 29.1, 50.1.3 və 51.1-ci maddələrinin tələblərinə uyğun olaraq ayrı-ayrı müsabiqələrin elan edilməsi barədə qərarlar qəbul edilib.

**Radionun ən çox informasiya əldə edə biləcəyimiz vasitə olduğunu vurğulayan media eksperti Azər Həsrətin "Şərq"ə açıqlamasına görə, yeni yaradılacaq radioların proqram sistemində Türkiyə təcrübəsindən istifadə etmək lazımdır:** "Radioya məxsusi marağım və simpatiyam var. Hesab edirəm ki, radio yayımı xüsusi diqqət tələb edən məsələdir. Amma bəri başdan deyim ki, Azərbaycanın həm dövlət, həm də özəl radiolarının vəziyyətini qənaətbəxş hesab etmirəm. Günün əksər hissəsi radioda canlı efirdir. Təsadüfi adamları çıxarırlar efirə. Nə danışıqlarını bilirlər, nə də nədən danışdıqlarını.



TRT-nin bir neçə radiokanalları var və onlar konkret sahələr üzrə istiqamətlənib. Hesab edirəm ki, Azərbaycanda ixtisaslaşmış radiokanalların qurulması ümumi işin xeyrinə olardı. Şəxsən mən Azərbaycandan daha çox Türkiyə radiolarına qulaq asıram. Konkret olaraq, TRT türk radiosunda həm Azərbaycan, həm də türk musiqisi yayımlanır. Həm də sanballı, əsl sənət nümunələri. Bizim radiolarda isə bayağı mahnılara daha çox yer verilir. Əksər radiokanallarımız, hətta "Azərbaycan" radiokanalı belə uyğunsuz verilişlərlə efirə çıxır. Kommersiya kanalları üçün bu, normal kimi dəyərləndirilə bilər, amma dövlət kanalının adına və statusuna yaraşmayacaq proqramlarla efirə çıxması xoşagələn hal deyil. Fikrimcə, yeni açılacaq radiokanallar bu çatışmazlıqları nəzərə almalı və eyni nöqsanları təkrarlamamalıdır".

*A.Həsrətin sözlərinə görə, hər nə qədər kommersiya şirkəti olsalar da özəl radioların proqram siyasəti ilə bağlı ciddi ölçü götürülməlidir:* "Radio çox ciddi və gərəkli ictimai təbliğat və təşviqat vasitəsidir. Eyni zamanda radio çox ciddi informasiya yayıcısı rolunu oynaya bilər. Əgər peşəkarlıqla idarə olunarsa. Çünki radioda canlı efir saatı daha çoxdur. İctimaiyyətlə ünsiyyət yaratmaq imkanları da genişdir. Əlimizdə olan bu imkanlardan niyə səmərəli istifadə olunmur? Məncə, radioların ideoloji problemi var. Bununla da dövlət səviyyəsində ciddi məşğul olunmalıdır. Radio böyük təsir gücünə malik kütləvi yayım vasitəsidir. Problemlərin gündəmə gətirilməsində radionun imkanlarından geniş istifadə edilə bilər. Daha çox analitikləri, politoloqları efirə dəvət etsinlər, canlı yayımda ciddi mövzular ətrafında müzakirələr təşkil edilsin. Radio ancaq çal-çağır üçün nəzərdə tutulmayıb. Siyasi proseslər, regional məsələlər də müzakirəyə çıxarılmalıdır. Bəzən özəl radiolar özlərini kənara çəkir. Bu, qətiyyən düzgün deyil. Radio özəl olsa da, yayımlandığı tezlik axı dövlətindir.

Dövlət də vətəndaşa məxsusdur. Deməli, vətəndaşları düşündürən, narahat edən məsələlərə də radio diqqət və vaxt ayırmalıdır. Radio cəmiyyətindirsə, mənim - vətəndaşın istədiyini də efirə verməlidir. Həmçinin dövlət siyasəti də radioda əksini tapmalıdır".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Consonun istefası heç nəyi dəyişmir

## Böyük Britaniya ilə Azərbaycan, eləcə də Türkiyə münasibətləri daha da yaxşılaşacaq



**Böyük Britaniyanın Baş naziri Boris Conson istefa verib. O, istefasını xalqa müraciətində açıqlayıb. Baş nazir əvvəlcə ictimaiyyətə "böyük imtiyaz" üçün təşəkkürünü bildirib: "Hər şeydən əvvəl, mənə verdiyiniz böyük imtiyaz üçün sizə, Britaniya ictimaiyyətinə təşəkkür etmək istəyirəm", - deyib.**

Artıq kulislərdə yeni baş nazir namizədləri haqqında danışılır. Birləşmiş Krallıqda baş nazir istefa verdikdə, bir qayda olaraq, seçki keçirilmir. B.Conson istefa versə də, onun payıza qədər vəzifəsinin başında qalacağı gözlənilir.

Xatırladaq ki, B.Conson Baş nazir olmaqla yanaşı Mühafizəkarlar Partiyasının da sədridir. Bir neçə həftə əvvəl Mühafizəkarlar Partiyasında Boris Consona etimad səsverməsi keçirilib.

Conson iyunun 6-da partiyasının parlament qrupunda keçirilən etimadsızlıq səsverməsində 148 əleyhinə 211 səslə qalib gəlib. Mühafizəkarlar Partiyasının 359 deputatının 40 faizindən çoxunun Consonun istefa verməsini istəməsi İngiltərə baş nazirinin daxili siyasətdə çətin günlərini gözləməsi kimi şərh edilib.

**Böyük Britaniyanın Baş naziri B.Consonun istefasını "Şərq"ə dəyərləndirən siyasi şərhçi Rusif Məmmədsoy bildirib ki, bu addım Böyük Britaniyanın xarici siyasət strategiyasına təsir göstərməyəcək: "Müəyyən korrektələr mümkündür. Ancaq Ukrayna, Estoniya kimi ölkələrlə, eyni zamanda Türkiyə ilə birgə ittifaq qurmaq istəyi sadəcə B.Consonun fəaliyyətinin nəticəsi deyil, eləcə də Böyük Britaniyanın da istəyidir. Belə istefalar normal qəbul olunmalıdır. 1979-cu ildə baş nazir postuna gələn Marqarit Tetçer də öz partiyası tərəfindən hakimiyyətdən uzaqlaşdırılmışdı. Boris Conson eyni aqibətlə üzləşmiş kimi qiymətləndirilməlidir.**

Consondan sonra gələn baş nazir Rusiyaya qarşı qəti mövqe sərgiləyəcək. Məsələlərə təkcə Conson amili üzərindən yanaşmamalıyıq, eyni zamanda Avropanın mövqeyidir. Ukrayna hadisələri fonunda Consonun istefası çox gündəmə gətirilir. Bəlkə də adi zamanda yaşansaydı, gündəmə çevrilməzdi. Consonun hakimiyyətdən getməsi qarışıq dövrə təsadüf etdiyi üçün özü ilə bərabər bu qədər suallar yaratdı".

Analitik vurğulayır ki, Consonun əvəzedicisi kimi hind əsilli şəxslərdən biri qatı anti Rusiya mövqeyindədir, lakin bu əhəmiyyəti daşımır: "Rusiya Ukraynada uğur qazansa, Avropa üçün ağır nəticələnər. Artıq siqnallar da eşidilir. Moldova, Dnestryanıda uzun illərdir separatizm hökm sürür. Növbəti hədəf Polşa da ola bilər. Polşanın canfəşanlıqla Ukraynanı dəstəkləməsi boşuna deyil. Hər kəs vahid düşmənə, yəni Rusiyaya qarşı mübarizə aparır. Rusiya dünya üçün təhdidə çevrilib.

Böyük Britaniya ilə Azərbaycan, eləcə də Türkiyə münasibətləri daha da yaxşılaşacaq. Türkiyə regionda açar dövlətdir. Qərbin maraq dairəsindədir. Azərbaycanda Avropanın böyük transmilli korporasiyaları fəaliyyət göstərir. BP ("British Petroleum") şirkətinin Azərbaycanda yerləşməsi təhlükəsizlik təminatçısı kimi dəyərləndirilməlidir". Rusiyalı deputat Mixayil Delyagin Azərbaycanın neft sənayesini bombalamaqla hədələdi. Görünür, Azərbaycanın Ukraynaya neft verməsi Rusiyada bəzi dairələrin xoşuna gəlməyib. Ardınca Böyük Britaniyanın müdafiə naziri ölkəmizdə peyda oldu. Rusiyaya Azərbaycanın tək olmadığı sinqalı verildi. Şuşa Bəyannaməsini imzalamışıq, yanımızda Türkiyə kimi dövlət var. Eyni zamanda Böyük Britaniyanın da maraq dairəsindəyik. Qarşılıqlı əməkdaşlıq irəliləyir, xüsusilə iqtisadi yöndə gerçəkləşdirilir. BP şirkəti fəaliyyət göstərən ölkədə təxribat, qarşıdurma və yaxud neft borularının hədəfə çevrilməsi Rusiyaya baha başa gələr".

**Aygün Tahir**

# Uşaq hüquqlarının müdafiəsi işində bir sıra pərakəndəlik var

## Yaxşı olar ki, uşaqların hüquqlarının müdafiəsi bir əldə - bir orqanda cəmləşsin

**"Uşaq hüquqları haqqında" yeni qanun layihəsi hazırlanır. Sənəd yaxın vaxtlarda aidiyyəti orqanlara təqdim olunacaq. Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə isə "Şərq"ə açıqlamasında qanun layihəsindən xəbərsiz olduğunu dedi:**



***"Ombudsman səlahiyyətlərini artırmaq da olar. İcra hakimiyyətləri yanında fəaliyyət göstərən komissiyaların, ya da Sosial Xidmətlər Agentliyinin fəaliyyəti də gücləndirilməlidir"***

"Bizə hələ ki, sənəd təqdim olunmayıb. Uşaq hüquqları xüsusilə həssas məsələ olduğu üçün, qanun layihəsinin hazırlanmasında, ya da qanuna dəyişikliklər edildikdə, uşaq hüquqları ilə məşğul olan, bu sahədə təcrübə əldə etmiş təşkilatların fikri, rəyləri də öyrənilməlidir. Amma bizi çox nadir hallarda müzakirələrə dəvət edirlər. Ola bilsin, mən məsələlərə daha çox tənqidi yanaşdığım üçün dəvət etmirlər. Heç üzülmürəm, çünki öz işimlə məşğulam. Bəlkə yeni layihə bizə də təqdim olunacaq. Ancaq hələ ki, məlumatsızam".

**K.Ağazadə qeyd etdi ki, qanunlar demək olar ki, həmişə mükəmməl hazırlanır. Problem qanunlarda deyil, qanunların icra mexanizmlərinin təkmil olmamasındadır:**

- 2020-ci ildə "Uşaqların zərərli informasiyalardan qorunması haqqında" Qanun qüvvəyə mindi. Bu qanun uşaqların zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Qanunda uşaqların əldə etməsi qanunla məhdudlaşdırılan informasiyaların növləri müəyyənləşib və sair. Amma gəlin görək, qanuna necə əməl edilir? Efirlərə uşaqları çıxarırlar, uşaqlar ailə münaqişələrinin mərkəzinə qoyulur, danışdırılır, dindirilir. Uşaqlar çox ağır psixoloji travma alır. Amma bunun qarşısı alınmır. Düzdür, son vaxtlar media uşaqlarla bağlı informasiyalarda anonimliyi qoruyur, uşaqların üzünü açıq göstərmirlər, lakin hələ də qanun pozuntularına yol verənlər var. Uşaqların hər cür zərərli informasiyalara çıxışları da sərbəstdir. "Uşaq hüquqları haqqında" yeni qanun hazırlanırsa, burada hər bir bənd üzərində ciddi işlənilməlidir. Qanunun icrası üçün mexanizmlər olmalıdır. Mexanizmlər də qanunun bəndlərinə uyğunlaşdırılmalıdır. Qanunlar, bəli, çox yaxşıdır. Amma işlək mexanizmlər olmayacaqsa, qanunun nə faydası?

*K.Ağazadə eyni zamanda uşaq hüquqlarının müdafiəsi işində bir sıra pərakəndəliklərin olduğunu da qeyd etdi:*

- Uşaq hüquqlarının müfadiəsində pərakəndəlik hardadır: uşaqların yerləşdirilməsiylə bağlı. Uşaq sığınacaqlarının bir hissəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdindədir, bir hissəsi isə - internat və uşaq evləri timsalında Təhsil Nazirliyinin. Həmçinin, övldalığa verilmə məsələsinə "DOST" Mərkəzi baxır. Qiymətləndirməni "DOST" aparır, valideynini itirmiş, valideyn himayəsindən məhrum uşaqlar haqqında məlumat bazası "DOST"dadır, ancaq uşaqlar övladlığa veriləndə yenə də uşaqlar internatlar və ya uşaq evlərindən götürülür. İcra hakimiyyətləri yanında Qəyyumluq şöbələri var. Sosial xidmətlər agentliyi də fəaliyyət göstərir. Yaxşı olar ki, uşaqların hüquqlarının müdafiəsi bir əldə - bir orqanda cəmləşsin. Ombudsman səlahiyyətlərini artırmaq da olar. İcra hakimiyyətləri yanında fəaliyyət göstərən komissiyaların, ya da Sosial Xidmətlər Agentliyinin fəaliyyəti də gücləndirilməlidir. Əsas odur ki, uşaq hüquqları ilə bağlı konkret ünvana müraciət etmək mümkün olsun.

**Məlahət Rzayeva**

# Pambıqdan öz brendlərimizi yaratmalıyıq

## Onlarla fabriklər qurulsa, on minlərlə vətəndaşımız işlə təmin olunar

**Deputat Razi Nurullayev Milli Məclisin iclasında pambıq sahəsindəki vəziyyətdən və iş adamlarından danışıb. O bildirib ki, hazırda bir sıra rayonlarda xeyli pambıq əkilib: "O pambıq mahlıca çevrilib xarici ölkələrə satılır və son məhsul şəklində özümüzə 10 dəfə baha göndərilir.**

Əzab-əziyyətlə, suvarma suyu üstündə dava apara-apara yetişdirdiyimiz pambığı niyə son məhsula çevirə bilmirik? Ola bilsin ki, bəzilərinə sərf edir, çünki elə mahlıcdan əziyyətsiz yaxşı pul qazanır. Bu da olsun onlarla adam. Bəs qalanları? Hazır mahlıcın məhsula çevrilməsi üçün onlarla fabrik qurulsa, on minlərlə vətəndaşımız işlə təmin edilər və ixracımız artar, pambıqçılığa daha böyük həvəs yaranar. Bir ara Mingəçevirdə belə bir müəssisənin yaradılması üçün iş aparıldı, amma indi var, yoxsa yox, bilmirik".



***"Əzab-əziyyətlə yetişdirdiyimiz pambığı niyə son məhsula çevirə bilmirik? Ola bilsin ki, bəzilərinə sərf edir, çünki elə mahlıcdan əziyyətsiz yaxşı pul qazanır"***

**R.Nurullayev məntəqələrdəki vəziyyətdən də danışıb:** "İmişlidə səfərdə olan zaman yeni bir pambıq toplama və emalı məntəqəsinin tikildiyini gördüm, bu il işə başlayacaq və kənd sakinlərindən 70-80 nəfər orada işlə təmin olunacaq. Bu, çox sevindiricidir. Amma orada hazırlanacaq mahlıcdan son məhsulların hazırlanması üçün əlavə fabriklər də tikilərsə, minlərlə iş yeri olar. Amma bu sahədə sahibkarlara ciddi dövlət dəstəyi lazımdır. Bu məsələni niyə həll edə bilmirik? Daha neçə illər gözləyək ki, bu dəyər zənciri yaradılsın? Ola bilməz ki, bizdə bu sahəni bilən mütəxəssis olmasın. Ola bilər ki, həmişə olduğu kimi iş başında bilənlər yox, qazanc tamahına önə çıxanlar var".

**Deputat əlavə edib ki, bu sahədə ilk köməkliyi aidiyyəti qurumlar göstərməlidir:** "İş adamlarına stimul və dövlət dəstəyi göstərmək lazımdır ki, onlar bunu etməyə həvəsli olsunlar. Bizneslərini itirməkdən qorxmasınlar, çəkinməsinlər ki, əllərindən alınar, ya da biri gəlib vəzifəsindən sui-istifadə edib ağır şərtlər qoyar. Keyfiyyətli trikotaj sahəsi qardaş Türkiyədə, Hindistanda, Vyetnamda, Banqladeşdə gözəl inkişaf edib. Banqladeş dünyanın az qala yarısının brendlərini tikir, hər dalanda bir tikiş fabriki var. Təklif edərdim ki, biz Banqladeşdən, Vyetnamdan, Pakistandan mütəxəssislər cəlb edək, gəlib fabrik qursunlar. Bu məsələ hökumət səviyyəsində bir daha müzakirə olunsun və biz əziyyətlə yetişdirdiyimiz pambıqdan öz brendlərimizi yaradaq və bazara çıxaraq".

**İsmayıl**

# Bütün məlumatlar bir ünvanda cəmləşəcək

## Daşınmaz əmlakın elektron qaydada bağlanması sənədləşmə işində müsbət addımdır




**Azərbaycanda daşınmaz əmlakın icbari sığortası elektron şəkildə bağlanılacaq. Bununla bağlı "İcbari sığortalar haqqında" qanuna dəyişiklik təklif olunur.**

Qeyd edilir ki, hazırda yalnız avtonəqliyyat vasitələrinə münasibətdə bağlanan icbari sığorta müqavilələri elektron sənəd formasında bağlanılır. Qanunla tənzimlənən daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta müqavilələri isə kağız formasında bağlanılır. Müqavilələrin kağız formasında bağlanması bəzi hallarda bir sıra problemlərin yaranmasına, xüsusilə fiziki təmas olmadan müvafiq icbari sığorta şəhadətnaməsinin əldə edilməməsinə, vətəndaşların saxtakarlıqla üzləşməsinə, təminatsız qalmalarına və sığorta müqavilələrində məlumatların dəqiqliyinin təmin edilməməsinə səbəb olur.

Məlumdur ki, 2020-ci ildən etibarən "Daşınmaz əmlakın icbari sığortası haqqında" qanuna düzəlişlər qəbul olundu. Qanuna görə, Bakı şəhərində daşınmaz əmlaka sahib olanlar 50 manat illik sığorta haqqı ödəyərək əmlaklarını sığorta etdirməlidir. Sığorta haqqı Sumqayıt, Gəncə, Naxçıvan şəhərlərində 40 manat, digər yaşayış məntəqələri və bölgələrdə isə 30 manatdır. İcbari sığorta müqaviləsinin bağlanmamasına görə fiziki şəxslərə 30 manat, vəzifəli şəxslərə 80 manat, hüquqi şəxslərə isə 200 manat cərimə nəzərdə tutulub. 20 gün ərzində icbari sığorta müqaviləsi bağlanmasa əmlak sahibi yenidən eyni məbləğdə cərimə edilir. Daşınmaz əmlakın icbari sığortası, həm də sənədli evləri üzə çıxarır. Sənədsiz evlər isə daşınmaz əmlak sığortasından yararlana bilmir. Əslində, sığortaya inananlar azdır. Avtomobil qəzaları zamanı sığorta şirkətləri sığortalanmış avtomobilə dəymiş ziyanı heç ödəmir. Odur ki, kimsə mənzilə, fərdi evinə ziyan dəyərsə, sığorta ilə zərərin qarşılaşacağına inanmır, ona görə də sığortaya ödənilən pulları "havaya sovrulmuş" hesab edərək, sığortadan uzaq gəzir.

**Əmlak Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı bu fikirdədir ki, sığorta sistemi ölkədə lazımi qaydada işləmədiyindən vətəndaşlar inamsız yanaşır:**

- Daşınar, daşınmaz əmlakın sığortası sistemi qaneedici səviyyədə deyil. Vətəndaşlar avtomobillərini sığortalayır, lakin qəza baş verdikdə, avtomobilə zərər dəydikdə, çox zaman sığorta şirkəti dəymiş ziyanı ödəyə bilmir. Qəzada iştirak edən tərəflər problemi öz aralarında həll edirlər. Daşınmaz əmlakla bağlı da eyni situasiyadır. Sığorta sistemi mükəmməl olmadığı üçün vətəndaşı qane etmir. Daşınmaz əmlakın elektron qaydada bağlanması sənədləşmə işində müsbət addımdır. Məlumatların bir ünvanda cəmləşməsi istənilən zaman o məlumatı əldə etmək imkanı verir. Daşınmaz əmlakın icbari sığortasının elektron qaydada təsdiqi vətəndaşa sığorta şəhadətnaməsi əldə etmək hüququ verəcək. Lakin məsələ, yenə də sığortanın mümkün zərərləri nə dərəcədə qarşılaya biləcəyindədir. Sığorta sistemi elə qurulmalıdır ki, vətəndaş zərərlə qarşılaşacağı halda, dəstək görəcəyinə əmin olsun.

**Məlahət Rzayeva**



## Dərdinə dərman tap, ey kasıb!

### İpoteka kreditləri sadə vətəndaşlar üçün heç vaxt əlçatan olmayacaq

**"Dostlar, bir tanışım ipoteka şərtləri ilə maraqlanır. Bu gün 7-8 faizlə ipoteka krediti verən bank varmı? İpoteka ilə ev almaq 10 il əvvəlki qədər müşkül deyil ki?"**

Bu barədə tanınmış teleaparıcı Ləman Ələşrəfqızı öz feysbuk hesabında paylaşım edib. Jurnalistin sualına gələn cavablar diqqəti cəlb edir. İstifadəçilərin əksəriyyəti ipoteka kreditlərinin əlçatan olmamağından, şərtlərinin isə ağırlığından gileylənib. İpoteka kreditləri ilə bağlı "Şərq"ə danışan iqtisadçı-eskpert Fuad İbrahimov bildirib ki, ipoteka sistemində boşluqlar var: "Dünyanın istənilən müasir sistem və texnologiyalarını, o cümlədən ipoteka sistemini ölkəyə gətirmişik. Amma bu anlayış bizdə yalnız müəyyən təbəqə üçün əlçatan və qaneedicir. Ümumi kütləni isə qane etmir. Bu kütlə üçün ipoteka krediti adi kredit kimi əlçatmazdır. Çünki bu illər ərzində faiz dərəcələrinin yüksəkliyini nəzərə alsaq, insan yarı yolda ödəyicilik qabiliyyətini itirir. Digər vəziyyətdə isə iki-üç evin pulunu ödəmiş olur. Bu nöqteyi-nəzərdən bizim cəmiyyətin arzularına cavab vermir". Ekspert qeyd edib ki, problemin həlli üçün kifayət qədər maliyyə dayanıqlılığı lazımdır: "Bu sistemə institusional yanaşma lazımdır. Yəni ipoteka veririksə, bu sistemin mənasını anlamalıyıq. Burada da vətəndaşların gəlirlərini və eyni zamanda artan xərcləri nəzərə almaq lazımdır. Bu baxımdan ipoteka səviyyəsi optimal olmalıdır. Bu problemin konkret həlli üçün hökumətin yanaşması hiss olunmalıdır. İllik ayrılan vəsaitlərlə isə həllə çatmayacağıq. Problem həllini tapana qədər də vətəndaşlar narazı olacaq".

**Çimnaz Şahlar**




## Qeyri-qida məhsulları da bahalaşıb

### Vəziyyətdən iki çıxış yolu görünür

**Marketlərdə ərzaq məhsulları ilə yanaşı qeyri-qida məhsullarının da qiyməti artıb. Satıcıların sözlərinə görə, gündəlik istifadə olunan şəxsi gigiyena vasitələri kəskin bahalaşıb. Vətəndaşlar da qiymət artımının olduğunu təsdiqləyirlər.**

Dövlət Statistika Komitəsinin yaydığı son rəqəmlər də Azərbaycanda qeyri-ərzaq məhsullarının bahalaşdığını təsdiq edir. Belə ki, cari ilin yanvar-may aylarında qiymətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artıb. Məlumata görə, şəxsi-gigiyena məhsulları arasında daha çox bahalaşma toz şəklində olan sintetik yuyucu vasitələrin, sabunların və diş pastalarının qiymətlərində müşahidə olunub.

**İqtisadçı-ekspert Natiq Cəfərli adıçəkilən məhsulların bahalaşma səbəblərindən danışıb. O, "Şərq"ə açıqlamasında qeyd edib ki, qeyri-ərzaq məhsulları, xüsusən də məişət kimyası və şəxsi-gigiyena vasitələri ölkəyə xaricdən gətirilir:** "Bu sahədə Azərbaycanın daxili istehsalı demək olar ki, yoxdur. Ona görə də xaricdə qiymət artımının sürətlənməsi idxal inflyasiyasının yüksəlməsinə səbəb olur. Burada iki çıxış yolu var. Birincisi, yerli istehsalı artırmaqdır. Lakin onu təşkil etmək uzun zaman alan məsələdir. Bu mövzuda hökumət kifayət qədər zaman itirib. Öncədən bununla bağlı xüsusi tədbirlər görülməli idi".

Ekspertin sözlərinə görə, ikinci çıxış yolu müəyyən güzəştlərin tətbiq edilməsidir: "Bu, vergi və gömrük güzəştlərinin tətbiqi ola bilər. Bu yolla qiymətləri tənzimləmək mümkündür. Hansı addımların atılacağını indidən söyləmək çətindir. Bu, hökumətin verdiyi qərardan asılı olacaq. Amma xaricdə qiymət artdıqca asılılığımız olduğu üçün ölkə daxilində də qiymət artımı davam edə bilər".

**Çimnaz Şahlar**

# Təhsil sahəsinə kifayət qədər pul ayrılır, nəticə olmur

## Ekspert millət vəkilinin toxunduğu məqamlarla razılaşır

**Millət vəkili Etibar Əliyev təhsil sahəsində yol verilən yanlışlıqlar və bu sahəyə ayrılan vəsaitlərin mənimsənilməsindən gileylənib.**

Deputatın fikrincə, Dünya Bankının ayırdığı külli miqdarda kredit vəsaiti istiqaməti üzrə xərclənmir, dərsliklərin yazılmasında monopoliya var, təsadüfi adamlar məktəblərə direktor təyin olunur, ali məktəblər naşı idarəçiliyin qurbanına çevrilib: "Vaxtilə neqativ hallardan danışanda məhəl qoyan olmadı, lakin acı nəticələri sonradan gördük. Dünya Bankının krediti və Proqramlara ayrılan vəsaitlərin mənimsənilməsi hesabına milyonçu olanları hamı tanıyır. Bu vəsaitin hesabına yazılan kurikulum sənədi proqram, məzmun və dərsliklərdə dolaşıqlıq yaratdı. Bu sənədi ölkənin elm və təhsil adamları yox, Hollandiyanın hansısa CİTO qrupu bizə sırıdı. Acı fəsadları göz önündədir. Dərsliklər elə urvatsız səviyyədə yazıldı ki, müəllim, şagird və valideyn labirintə düşdü. İndi də bu proses davam edir. Günləri yola veririk, tənqid edənlərdən düşmən obrazı yaradılır".

**Təhsil eksperti Elçin Əfəndinin "Şərq"ə açıqlamasına görə, təhsilin maliyyələşdirilməsi əksər dünya dövlətlərinin sosial siyasətinin prioritetlərindən hesab olunur. Təhsilin inkişafı üçün ayrılan vəsait düzgün xərclənsə, hansısa nailiyyətə nail olmağın mümkünlüyünü düşünən ekspert deyib ki, təhsil sahəsinə kifayət qədər pul ayrılır, nəticəsi isə olmur:** "Millət vəkilinin qeyd etdiyi məqamlarla razıyam. Bu sahəyə ayrılan maliyyə müvafiq şəxslər tərəfindən mənimsənilir və tamam fərqli istiqamətlər üzrə xərclənir. Aradan 12-13 il keçməsinə baxmayaraq ölkənin ali təhsil müəssisələrində Bolonya sisteminin tətbiqi arzuolunan səviyyədə deyil. Orta məktəblərdə tətbiq olunan kurikulum sistemi ilə bağlı vəziyyət də eyni cürdür. Biz hələ kurikulumdan əvvəlki təhsil sistemindən də çıxa bilməmişik, bu da təhsildə xaotik bir vəziyyət yaradır. Orta və ali təhsil müəssisələrində də bu sahədə çatışmayan cəhətlər çoxdur.



*"Aradan 12-13 il keçməsinə baxmayaraq ölkənin ali təhsil müəssisələrində Bolonya sisteminin tətbiqi arzuolunan səviyyədə deyil. Orta məktəblərdə tətbiq olunan kurikulum sistemi ilə bağlı vəziyyət də eyni cürdür"*

Təsirli proqramların istifadə olunmasını təmin etmək üçün müəyyən komissiyalar yenilikləri öyrənməli və tətbiqi üzərində çalışmalıdır. Tədris proqramları ağır olduğuna görə, həm təhsil alanlar, həm də təhsil verənlər bu proqramların mənimsənilməsində əziyyət çəkir. Çünki vaxtında bu təhsil proqramlarının tətbiqi səriştəsiz və sistemdən xəbərsiz insanlara həvalə olundu. Yeni proqramlarla bağlı yetərli bilik və bacarıqlara sahib olmayan pedaqoji heyətin kortəbii idarəçiliyinə münbit şərait yaradıldı. Ali təhsil müəssisələrinə dövlət tərəfindən ayrılan vəsaitlər düzgün istifadə olunmur. Ayrılan vəsait bir çox hallarda universiteti idarə edənlərin şəxsi məqsədlərinə, şəxsi bizneslərinə sərf olunur".

**Şəymən**

## Azərbaycanlı müğənni məşhur türk serialına çəkildi



**Müğənni Sevinc Ağaşirinova Türkiyənin reytinqli layihələrindən birində rol alıb.**

Milli.Az BAKU.WS-ə istinadən xəbər verir ki, sənətçi ATV kanalında yayımlanan "Hakim" serialında çəkilib. Ağaşirinova ekran işində aldadılan müğənni obrazında olub.

*Qeyd edək ki, "Hakim"in əsas rollarında Erdal Beşikçioğlu, Ebru Özkan, Uğur Yücel və Yurdaer Okur kimi tanınmış aktyorlar yer alıblar. Aksiyon və dram janrlı ekran işində illərdir işini ədalətlə görən və hər kəsin hörmət etdiyi hakiminin başına gələnlərdən bəhs olunur.*

**Elan**

Əhmədova Xatirə Fərhad qızına Azərbaycan Tibb Universiteti tərəfindən verilmiş diplom və Səhiyyə Nazirliyi tərəfindən verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin N saylı hərbi qulluqçusu Məmmədov Rəşad Firman oğluna məxsus hərbi qulluqçunun şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Turizm bölgələrində qiymətlər çox bahadır

## Vətəndaşlar bu mövsüm istirahət etməkdə çox çətinlik çəkirlər

**Yay fəsli gələn kimi hər kəs işdən uzaqlaşıb sakit guşələrə çəkilmək, çimərliyə getmək, təbiət qoynunda dincəlmək istəyir. Burada isə əsas məsələ seçilən məkanların münasib qiymətə, hər cibə uyğun olmasıdır. Deyək ki, İsmayıllıda, Qubada dincəlmək üçün bir ailənin həftəlik xərci azı 1000 manat təşkil edir.**

Camaat qışda Şahdağa, Qəbələyə, bəzən də Şəkiyə gedir, o da bir, maksimum iki günlük. Yayda isə çoxları Türkiyəyə, Gürcüstana qaçmağa çalışır. Səbəblərdən biri bahalıqdır.

Turizm üzrə ekspertlər isə bölgələrdə qiymətlərin bahalaşmaması üçün bir sıra işlərin görülməsinin vacib olduğunu söyləyirlər.

**Məsələ ilə bağlı "Şərq"ə danışan turizm məsələləri üzrə ekspert Ceyhun Aşırov bildirib ki, Azərbaycanda otel və yataqxanaların sayı azdır:** "Dünyada yay mövsümü istirahət dönəmi sayılır. Bu mövsümdə otellərə, turizm destinasiyalarına gedişdə tələbat kəskin surətdə artır. Daha çox vətəndaşlarımız qiymətlərin bahalığından, xidmətin keyfiyyətsizliyindən şikayətlənir. Müəyyən tədbirlər görülsə də, nəticəsini dərhal görmək olmur. Çünki mövsümi xarakter daşıyır.

Regionlardakı otellərimiz də işçiləri mövsümə uyğun artırıb-azaldırlar. Bəzi istirahət zonalarında məkan tamamilə qapadılır. Qonaq gəlmədiyi üçün işçiləri saxlamaq səmərəli deyil. Amma yayda yenidən işçilər yığılır. Müvəqqəti duruma görə, peşəkar işçilərin tapılmasında sıxıntılar yaşanır.

Tələbat yüksək olanda qiymətlər qalxır. Tutalım, otelin bütün otaqları satılıb. Qiymətləri bir az da qaldırsa, yenə otaqlar satılsa, artıq sahibkar məbləği aşağı salmaqda maraqlı olmayacaq. Azərbaycanda otellərin, turistlərin istirahətə gedəcəkləri məkanların sayı artırılmalıdır. Proseslər sahibkarlar üçün asanlaşmalıdır".



**C.Aşırovun qənaətincə, gediləcək yerdə turistlərin, həmçinin vətəndaşlarımızın kifayət qədər seçim imkanı olarsa, tələb və təklif məsələsi nizamlanacaq:** "Qiymətlər daha sərfəli, xidmətlərdə isə rəqabət yaranacaq. Çünki yaxşı xidmət verən və qiyməti uyğun məkanları seçəcəyik.

Hər il bazara yeni məkanlar daxil olur. Otellərin tikintisi çox kapital tutumludur, birdən-birə baş tutmur. Amma regionlarda kənd evləri standartlara uyğunlaşır. Təklif olunan evlərin qiyməti otellərdəkindən aşağıdır.

Məkan seçimlərinin sayı artdıqca, rəqabət mühiti yaranacaq. Nəticədə müştərilərin məmnuniyyəti yüksələcək".

**İqtisadçı Xalid Kərimli isə düşünür ki, qiymətlərin bahalaşmasının qarşısını almaq mümkünsüzdür:** "Xüsusilə, ərzaq məhsullarının bahalaşması qlobal bazarda baş verən proseslərlə əlaqəlidir. Ölkə bunun qarşısını almaq iqtidarında deyil. Zatən manatı stabil saxlamaqla inflyasiyanın bir hissəsinin qarşısını alır.

Taxıl və s. məhsullarda qiymətlərdə vergini ləğv edir. Pandemiyadan sonra baş verən proseslər, Rusiya-Ukrayna müharibəsi fonunda həm ərzaq, həm də qeyri-ərzaq məhsullarının bahalaşması davam edir.

Bölgələrdəki istirahət mərkəzlərində qiymətlər ürəkaçan deyilsə, insanlar rayona getməsin. Bazar iqtisadiyyatında qiymətlər sərbəst formalaşır. İnsanlar bütün qiymətlərlə razılaşmaq məcburiyyətində deyil.

Hərə öz büdcəsinə uyğun qərar verməlidir. Hökumət əlindən gələni edir. Bölgələrdəki müəssisələr qiymətləri yüksək qoyurlar. Görünür, müştəriləri var".

**Aygün Tahir**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1995



## Acun Ilıcalı toya gəldi

### Geyimi müzakirə yaratdı

**Xəbər verdiyimiz kimi, ötən gün türkiyəli aktrisa Ebru Şahinlə basketbolçu Cedi Osmanun toyu baş tutub.**

Axsam.az xəbər verir ki, mərasimdə bir çox məşhur sima iştirak edib. Onlar arasında ən çox diqqət çəkən isə iş adamı, "Tv8" telekanalının sahibi Acun Ilıcalı olub. Onun toya ənənəvi qara köynəyində qatılması sosial şəbəkədə müzakirə yaradıb.

İş adamının ünvanına "Acunun pul sehri bəlkə də bu köynəkdədir", "Bu qədər var-dövlət, amma dünyadan bu qara köynəklə köçüb gedəcək", "Acunun bundan başqa geyimi yoxdur" kimi şərhlər gəlib.

Bundan başqa, Acun mərasimdə nikah məmuru kimi cübbə geyinib. O, Makedoniyada rəsmi nikahları bağlanan cütlüyün toyunda da bəylə gəlinə evliliyə razı olub-olmadıqları ilə bağlı sualları ünvanlayıb.

*Qeyd edək ki, Acun toyda sebgilisi Ayça Çagla Altunkaya ilə birgə iştirak edib.*

## Qiyməti 1,88 milyon dollardır

### "Ferrari" dünyanın ən nazik mexaniki saatını hazırladı



**"Richard Mille" və "Ferrari" arasındakı əməkdaşlıq çərçivəsində yaradılan ilk saat dünyanın ən nazik mexaniki saatı olub.**

O, bu adı "Bvlgari Octo Finissimo Ultra"dan təhvil alıb. Oxu.az xəbər verir ki, yeni "RM UP-01 Ferrari" modelinin korpusunun qalınlığı cəmi 1,75 millimetrdir. O, təxminən iki plastik kart nazikliyindədir. Saatın qiyməti 1,88 milyon dollardır.

## Yeddi uşağın ölümündən sonra...

### TikTok məhkəməyə verildi




**TikTok-da məşhur olan təhlükəli "çellenc" nəticəsində dünyasını dəyişən 7 uşağın ailələri sosial şəbəkəni məhkəməyə verib.**

**Milli.Az bildirir ki, bu barədə "The Verge" məlumat yayıb. Nəşrin məlumatına görə, mahiyyəti boyundakı kəməri sıxmaqdan ibarət olan yarışmasında iştirak edərək övladları ölən valideynlər tərəfindən TikTok-a qarşı bir neçə iddia qaldırılıb. Ölənlərin ailələri sosial şəbəkəni bu cür videoların yayılmasının qarşısını heç bir şəkildə almamaqda ittiham edirlər. "TikTok bəzi çağırışları reklam etdiyinə və təbliğ etdiyinə görə, onun tətbiqində yerləşdirilən və paylaşılan çağırış videolarına baxmağa borcludur. Və platforma ölümcül çağırış videolarının dərc edilməməsini, yayılmasını və ya tövsiyə edilməməsini təmin etməlidir", - iddialardan birinin mətnində deyilir.**

***Qeyd olunur ki, ABŞ, Avstraliya və İtaliyada yaşayan 10-14 yaş arası yeddi uşaq artıq bu yarışmanın qurbanı olub.***

## Hadisə qürurlandı

### Müğənni Türkiyəni UNİCEF-də təmsil edəcək



**Türkiyənin pop "ulduzu" Hadisə uşaq hüquqlarının müdafiəsi sahəsində Türkiyənin UNİCEF-dəki nümayəndəsi olacaq.**

**Bu barədə "NTV.com.tr" məlumat verib. Məlumatda bildirilir ki, Hadisə uşaq hüquqları sahəsində, uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınmasında Türkiyəni UNİCEF-də təmsil edəcək. Müğənni açıqlamasında "UNİCEF-I və Türkiyədəki uşaqları dəstəkləməkdən qürur duyuram. Bu, mənim üçün bir röyanın reallaşmasıdır" söyləyib. Hadisə uşaq əməyinin istismarı, uşaqlara qarşı şiddət və zoraklılıq, uşaqların gələcəyinə təhlükə törədən hallara qarşı UNİCEF tərəfindən aparılan fəaliyyətlərdə Türkiyəni təmsilən yer alacaq. Hadisə deyib ki, uşaqlar böyüklərdən nümunə götürür. Belədə, onlara yaxşı nümunə olmalıyıq, onları qarşılaşdıqları ağır şərtlərdə dəstəkləməliyik.**

**Məlahət**




# Həkimlər körpənin həyatını xilas etdilər

## 8 aylıq Məhəmməd helikopterlə evlərinə qaytarılıb

**Antalyanın Kaş bölgəsi, Beldibi məhəlləsində 8 aylıq Məhəmməd ölümlə üz-üzə qalıb. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, uşağın ağladığını görən vaqlideynləri diqqətlə baxdıqda körpənin əlində həşərat sancmasına bənzər qızartı görüblər.**

Məhəllədə bundan öncə də qara əqrəblərin olmasını bilən valideynlər övladlarını əqrəb sancdığından şübhələniblər. Uşaq təcili şəkildə təcili yardım helikopteri ilə Almalı Dövlət Xəstəxanasına çatdırılıb. Bu müddətdə uşağın qolunda və ayaqlarında soyuma başlayıb. Vəziyyətin təhlükəli hal aldığının fərqində olan həkimlər körpənin Ağ dəniz Universiteti Tibb Fakültəsinə çatdırılmasını istəyib. 35 dəqiqə ərzində 8 aylıq körpə ora çatdırılıb və təcili tibbi müdaxilə başlayıb. Qara əqrəb sancmasının zəhərli ola biləcəyini ehtimal edən həkimlər uşağın qanının təmizlənməsinə qərar veriblər.



Həkimlərin səyi nəticəsində 8 aylıq Məhəmmədin həyatı xilas edilib. Bir müddət nəzarət altında saxlanan körpə daha sonra valideynlərinə təslim edilib. Körpə yenə də helikopterlə evlərinə aparılıb. Bildirilir ki, qara əqrəblər çox təhlükəlidir və onlara əsasən evlərin bağçalarında rast gəlinir. Yay fəsli, havaların isti keçməsi, uşaqların yarıçılpaq halda dolaşması əqrəb sancmalarının sayını artırır. Validеynlər bu məsələdə diqqətli olmalı, şübhəli halla qarşılaşdıqda dərhal həkimə müraciət edilməlidir, çünki zəhərin bədənə çox yayılması ölümlə nəticələnə bilər.

**Məlahət**



## Köpəkbalığı ailəsinin gözü qarşısında qadına hücum etdi

**ABŞ-da ailəsinin gözü önündə üzən qadına köpəkbalığı hücum edib və az qala ayağını qoparacaqdı. Milli.Az bildirir ki, bu barədə "Outdoor Life" xəbər verir.**

Hadisə iyunun 29-da Florida ştatının Florida Keys şəhərində Texasdan olan 35 yaşlı Lindsi Bruns əri və iki uşağı ilə yaxtada olarkən baş verib. Axşam saat 7 radələrində amerikalı sonuncu dəfə çimmək qərarına gəlib. O, bir neçə dəfə suya atladı və gəmiyə qayıtdı, sonra birdən qışqırmağa və kömək çağırmağa başladı.

Ər nə olduğunu görməyə tələsdi və arvadının ətrafında suda qan gördü. O, dərhal ona tərəf daldı və yaxtaya minməsinə kömək etdi. Brunsun ayağından qan axırdı. Sağ ayağının dizdən yuxarı hissəsində köpək balığının dişləməsindən dərin yara yaranmışdı. Ər qanaxmanı dayandırmaq üçün müvəqqəti ayağını sarıdı və köməyə çağırdı.

Dənizdə olan xilasedicilər qadını sahilə çıxarmağa kömək ediblər. Orada ona qan köçürüldü və helikopterlə Mayamiyə aparıldı. Cərrahlar dərhal Bruns üzərində iki əməliyyat keçirdilər, lakin onun ayağını xilas edə biləcəklərinə hələ də əmin deyildilər. Nəticədə üçüncü müdaxilə tələb olundu.

Florida Balıq və Vəhşi Təbiət Komissiyasının nümayəndələri bildiriblər ki, həkimlər indi qurbanın "əzasının əksər funksiyalarını bərpa edə biləcəklərinə" ümid edirlər. Amerikalıya hansı köpəkbalığının hücum etdiyi barədə məlumat verilmir.

## NASA zondu "Bennu" asteroidindən 250 qram torpaq nümunəsi götürüb

**ABŞ-ın Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqatı üzrə Agentliyinin (NASA) OSIRIS-REx kosmik zondu "Bennu" asteroidindən 250 qram torpaq nümunəsi götürüb. Kosmik aparat 2018-ci ilin dekabrında "Bennu" asteroidinə çatıb və 2020-ci ildə enmədən öncə oranı tədqiq edib.**



Azərtac Kyodo News agentliyinə istinadla xəbər verir ki, toplanan materiallar 2023-cü ilin sentyabrında Yerə çatdırılmalıdır. NASA həmin nümunələrin bir hissəsini 2020-ci ilin dekabrında Yerə qayıdan "Hayabusa2" zondunun "Ryuqu" asteroidindən əldə etdiyi materialı onlarla bölüşən Yaponiyanın Kosmik Agentliyinə verməyi planlaşdırır.

*Qeyd edək ki, asteroidlərin təxminən 4,6 milyard il bundan öncə Günəş sisteminin formalaşmasından sonra qalan qalıqlar olduğu güman edilir. Onların öyrənilməsi Günəş sisteminin formalaşması haqqında yeni bilgilər verə bilər.*

## O gecə bir möcüzə baş verdi

### Kişi toy hədiyyəsi olaraq yeni ürək aldı

**Son arzusu sevgilisi ilə evlənmək olan İtaliyanın Turin şəhərinin ölüm ayağında olan sakini toy hədiyyəsi olaraq yeni ürək alıb.**



Milli.Az bildirir ki, bu barədə Daily Mail məlumat yayıb.

47 yaşlı Mauritsio Kalorio və onun 42 yaşlı sevgilisi Silvia Duka 6 il görüşüblər. Onların bir qızı var idi. Cütlük evlənməyi planlaşdırırdı, lakin COVID-19 pandemiyası səbəbindən toyu təxirə salmalı oldular.

Kalorio bu yaxınlarda ürək tutması keçirdi. Xəstəxanaya aparıldı, süni nəfəs aparatına qoşuldu. Kişiyə ürək transplantasiyası lazım olsa da, uyğun donor orqanı tapmaq mümkün olmayıb. Sevgililər Kalorionun toy gününə qədər yaşayıb-yaşamayacağını bilməyiblər və düz xəstəxanada mərasim keçirmək qərarına gəliblər. Palata şarlar və qan nümunələrinin götürülməsi üçün şprislərdən hazırlanmış buketlə bəzədilib. Nikah mərasimindən cəmi bir neçə saat sonra kişiyə Neapolda transplantasiyaya uyğun ürəyin tapıldığı bildirilib. Xüsusi reyslə orqan Turinə aparılıb və həmin gecə adam 7 saatlıq ürək transplantasiyası əməliyyatı keçirib. "O gecə bir möcüzə baş verdi. Toydan sonra gözəl hədiyyə aldıq - Mauritsio üçün yeni ürək. Transplantasiya olmadan onun sağ qalmaq şansı demək olar ki, yox idi", - deyə Duka bildirib.

Hazırda Kalorio xəstəxanada həkimlərin nəzarəti altında qalır, lakin əməliyyat uğurlu keçib və həkimlər onun səhhətinin tam yaxşılaşacağını gözləyirlər. "Biz qaranlıqda idik, lakin bu hədiyyə bizi sevinc bəxş etdi. İndi birlikdə qocalıb qızımızı böyüdəcəyik. Kiminsə səxavəti sayəsində Mauritsio yeni bir həyat tapdı", - deyə kişinin arvadı vurğulayıb.

## İspaniya şahzadəsi Qvatemalalı diplomata ərə gedib

### Toy çoxdan olub, lakin mərasimdən şəkillər indi ortaya çıxıb

**İspaniyanın Burbon-Parma şahzadəsi Şarlotta Qvatemalalı diplomat Xavyer Valladares Urruelanın həyat yoldaşı olub. Bu barədə Daily Mail məlumat yayıb.**



Toy iyunun 25-də Normandiyanın kiçik Turuvr-o-Perş şəhərində keçirilib, lakin mərasimdən şəkillər yenicə ortaya çıxıb. Toy şəhərin kilsələrindən birində baş tutub. Tədbir üçün gəlin anası Baronessa Konstans de Ravinelə məxsus uzun yerlə sürünən klassik ağ paltar və tac seçib. Cütlük vacib mərasim üçün Turuvr-o-Perş şəhərini seçib, çünki şahzadə Şarlottanın atası Burbon-Parmalı Çarlz-Emmanuel orada yaşayır. İspaniya şahzadəsinin toyunda hər iki valideyni iştirak edib. Toydan bir həftə əvvəl yeni evlənənlər bələdiyyədə imza atıblar. Bu münasibətlə gəlin sarı-ağ çiçəkli mini paltar, papaq və topuqlu ayaqqabıya üstünlük verib. Mərasimdə Şarlotta əlində ağ çöl çiçəklərindən ibarət bir buket tutub.